

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 yanvar 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-nun nümayəndə heyəti “Bayraktar Teknoloji Azerbaycan” şirkətinin Bakı ofisini ziyarət edib**

➔Səh.2

**BDU ilə Belarus Dövlət İnformasiya Texnologiyaları və Radioelektronika Universiteti arasında anlaşma memorandumu**

➔Səh2

**BDU “THE 2025”in ixtisaslar üzrə reytinqində ölkə liderliyini qoruyur**

➔Səh.2

**BDU-da dövlət gənclər siyasəti uğurla həyata keçirilir**

➔Səh.5

**BDU-nun Karyera və məzunlarla iş Mərkəzi “Azərbaycan Uşaqları” İctimai Birliyi ilə əməkdaşlıq edəcək**

➔Səh.9

**BDU-da qış imtahan sessiyasında 23 minə yaxın tələbə iştirak edir**

➔Səh.10

**BDU-nun 537 tələbəsi COP29-da aktiv könüllü fəaliyyətinə görə təltif olunub**

➔Səh.11



**BDU-da arxeoloji qazıntılardan əldə edilən sümük nümunələrinin genetik DNT analizinin aparılması planlaşdırılır**

➔Səh.2



**BDU-da 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd olunub**

➔Səh.3



**“Tariximizin qanlı və şanlı səhifəsi” adlı sərgi təşkil olunub**

➔Səh.3



**BDU ilə Qazaxıstanın Kunaev Universiteti arasında anlaşma memorandumu imzalanıb**

➔Səh.4



**BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və jurnalistlər imtahan sessiyasının gedişini izləyiblər**

➔Səh.8




## Tariximizin qürur və şərəf səhifəsi

***1990-cı ilin 20 Yanvar hadisələrindən 35 il keçir. Qəhrəmanlıq və hüzn dolu bu tarix istiqlal salnaməsini qələmlə yox, qanla yaza bilən bir xalqı tanıtdı. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.***

Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi. Bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir. Məhz 20 Yanvar Azərbaycan xalqının pozulan hüquqlarının, suverenliyinin bərpası uğrunda savaşmaq əzminə sahib olduğunu ortaya qoydu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi.

20 Yanvar təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olub, 638 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. O zaman yalnız Ümummilli Liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə getdi və SSRİ rəhbərliyini törətdiyi bu cinayətə görə qətiyyətlə ittiham etdi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 1990-cı il noyabrın 21-də bu hadisəyə ilk dəfə siyasi-hüquqi qiymət verdi. Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı.

Bu gün Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu torpaqlarımızı erməni işğalından azad etdi, Vətən müharibəsində tarixi Zəfər qazandı. 2023-cü ilin sentyabr ayında Ordumuzun lokal xarakterli antiterror əməliyyatı ilə isə Qarabağ iqtisadi rayonunda olan separatizm yuvası məhv edildi və milli suverenliyimiz bərpa olundu.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Xalqımız Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman övladlarının xatirəsini qəlbində əbədi yaşadacaq!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## BDU Elmi Şurasının iclası keçirilib

➔Səh.12

# BDU-nun nümayəndə heyəti “Bayraktar Teknoloji Azerbaycan” şirkətinin Bakı ofisini ziyarət edib

*Yanvarın 9-da BDU-nun nümayəndə heyəti “Bayraktar Teknoloji Azerbaycan” şirkətinin Bakı ofisini ziyarət edib.*



Ziyarətin əsas məqsədi “Bayraktar Teknoloji Azerbaycan” şirkətinin elektronika, İT, süni intellekt və kimya mühəndisliyi istiqamətlərində peşəkar kadr hazırlığında BDU ilə birgə fəaliyyət perspektivlərinin müzakirəsi olub. Görüşdə BDU tələbələrinin “Bayraktar Teknoloji Azerbaycan” şirkətinin süni intellekt laboratoriyasında və istehsalat müəssisələrində təcrübəkeçməsi və işə qəbulu ilə bağlı ilkin razılıq əldə edilib.

Eyni zamanda BDU laboratoriyalarında Pilotsuz Uçuş Aparatlarında (PUA) istifadə olunan müxtəlif texnologiyaların araşdırılması, kompozit materialların istehsalı, ortaq elmi tədqiqatların, təlimlərin, hakaton və yarışmaların təşkili müzakirə edilib.

# BDU-da arxeoloji qazıntılardan əldə edilən sümük nümunələrinin genetik DNT analizinin aparılması planlaşdırılır

*Yanvarın 14-də BDU-nun rektoru Elçin Babayev Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun baş direktoru Fərhad Quliyev, Yaponiyanın Sapporo Tibb Universitetinin Tibb Elmləri Məktəbinin professoru Hirofumi Matsumura, Türkiyənin Hacettepe Universitetinin Antropologiya bölümünün rəhbəri, Hacettepe skelet biologiyası laboratoriyasının Hacettepe molekulyar antropologiya laboratoriyasının qurucusu Yılmaz Selim Erdalla görüşüb.*



Görüşdə BDU ilə birgə müştərək laboratoriyanın, müvafiq struktur bölmənin yaradılması, onların arxeologiya sahəsi üzrə geniş tədqiqatlara imkan verən maddi-texniki cihaz və avadanlıqlarla təmin edilməsi, tələbələrin çöl ekspedisiyalarının genişləndirilməsi, Qarabağda arxeoloji tədqiqatlarda birgə iştirak kimi məsələlər müzakirə olunub.

Görüşdə qeyd olunub ki, BDU-da arxeoloji qazıntılardan əldə edilən sümük nümunələrinin genetik DNT analizi istiqamətində işlərə başlanılması planlaşdırılır. Bu təşəbbüs qədim insanların genetik irsinin, miqrasiyalarının və həyat tərzinin öyrənilməsi ilə yanaşı, Azərbaycanın zəngin tarixi və mədəni irsinin daha dərindən araşdırılmasına töhfə verəcək.

BDU-da qurulacaq müasir laboratoriya və mövcud elmi potensial bu sahədə beynəlxalq standartlara uyğun tədqiqatların aparılmasına imkan yaradacaq. Xüsusi metodologiyalar əsasında sümük və diş nümunələrindən DNT çıxarılması, mitoxondrial DNT və tam genom analizləri həyata keçiriləcək. Bu tədqiqatlar qədim miqrasiyalar, genetik xəstəliklər və mədəni əlaqələr barədə yeni elmi məlumatlar əldə etməyə şərait yaradacaq.

BDU bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməyi və tədqiqat nəticələrini qlobal elmi ictimaiyyətlə paylaşmağı hədəfləyir.

# BDU ilk dəfə “Şanxay reytinqi”ndə TOP 500-də yer alıb

*Dünyanın ən nüfuzlu reytinqlərindən biri hesab olunan “Şanxay reytinqi” ("Shanghai ranking") tərəfindən “Akademik Fənlərin Qlobal Reytinqi” dərc olunub. Bakı Dövlət Universiteti ilk dəfə sözügedən reytinqdə riyaziyyat fənni üzrə təmsil olunur. Belə ki, Bakı Dövlət Universiteti reytinqdə 401-500-cü pillələr arasında yer alıb.*




Azərbaycan bu reytinqdə riyaziyyat fənni üzrə Cənubi Qafqaz regionunu təmsil edən yeganə ölkədir.

Qeyd edək ki, “Akademik Fənlərin Qlobal Reytinqi”ndə təbiət elmləri, mühəndislik, həyat elmləri, tibb elmləri və sosial elmlər daxil olmaqla 5 geniş sahə və 55 fənn üzrə dünyanın 96 ölkəsindən 1900-dən çox universitet yer alır. Bu reytinq müvafiq fənlər üzrə dünya universitetlərinin fəaliyyətini 5 kateqoriyaya (dünya səviyyəli akademik heyət, dünya səviyyəli elmi göstəricilər, yüksək keyfiyyətli tədqiqat, tədqiqat təsiri və beynəlxalq əməkdaşlıq) əsasən qiymətləndirir.

Ölkəmizdən müvafiq reytinqdə yer alan Azərbaycan Universitetini də təbrik edirik.

# BDU ilə Belarus Dövlət İnformasiya Texnologiyaları və Radioelektronika Universiteti arasında anlaşma memorandumu

*Yanvarın 13-də BDU ilə Belarus Dövlət İnformasiya Texnologiyaları və Radioelektronika Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Belarus Dövlət İnformasiya Texnologiyaları və Radioelektronika Universitetinin rektoru Vadim Boquş imzalayıblar.

Memorandum təhsil və elm sahələrində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkilini nəzərdə tutur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

Belarus Dövlət İnformasiya Texnologiyaları və Radioelektronika Universiteti ilə imzalanan memorandum BDU-nun beynəlxalq əlaqələrini genişləndirmək və universitetin qlobal nüfuzunu artırmaq məqsədilə atdığı mühüm addımlardan biridir.

# BDU “THE 2025”in ixtisaslar üzrə reytinqində ölkə liderliyini qoruyur

*“Times Higher Education” (THE) reytinq təşkilatı 2025-ci il üçün dünyanın ən nüfuzlu ali təhsil müssəsisələrinin ixtisaslar üzrə reytinq siyahısını açıqlayıb.*

Reytinq nəticələrinə əsasən, BDU yer aldığı kateqoriyaların sayına və mövqeyinə görə Azərbaycanda lider mövqeyini qorumaqda davam edir.

Belə ki, BDU fiziki elmlər (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və s.) sahəsində 1001+ mövqeyində yer alaraq, Azərbaycanda bu kateqoriya üzrə reytinqə daxil olan yeganə ali təhsil müəssisəsi olub.

Həmçinin, mühəndislik elmləri (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və s.) sahəsində 1001-1250-ci mövqedə qərarlaşaraq, bu kateqoriya üzrə reytinqdə ölkədə lider mövqeyini möhkəmləndirib.

Ümumilikdə BDU-nun qiymətləndirmə nəticələri əvvəlki illə müqayisədə fiziki elmlər sahəsində 10%, mühəndislik elmləri sahəsində isə 14% artıb.

Məlumat üçün qeyd edək ki, nüfuzlu “THE” təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin və ixtisaslarının reytinqini tərtib etmək və universitetlərin reytinqinin yüksəldilməsi üçün tövsiyələr verməkdir. Universitetlərin reytinq nəticələri tədris keyfiyyəti, elmi-tədqiqat fəaliyyəti, istinad indeksi, beynəlxalq reputasiya, sənaye gəlirləri və digər meyarlar əsasında müəyyən edilir.

# BDU-da 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd olunub

***Yanvarın 17-də BDU-da 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə BDU kollektivi 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyub, gül dəstələri düzüb.





Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BDU-nun rektoru Elçin Babayev bildirib: “Bu il Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizənin simvoluna çevrilmiş 20 Yanvar faciəsindən 35 il ötür. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 35 il əvvəl həmin faciəli gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Bu tarix Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri və qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəmizin və yenilməz iradəmizin rəmzinə çevrilib: Keçmiş Sovet Ordusunun həmin gün Azərbaycan xalqına, dinc, silahsız insanlara qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə həkk olunub. 20 Yanvar faciəsi dünya azərbaycanlılarının azadlıq uğrunda təşkilatlanmasını sürətləndirməklə, faciədən sonra Azərbaycanda sovet imperiyasının bütün mənəvi və sosial dayaqlarını itirməsinə səbəb olub. Məhz bu hadisədən sonra müstəqillik ideyası ümummilli amala çevrilib. O zaman yalnız Ümummilli Liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək, Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra, 1994-cü il martın 29-da Ümummilli Liderin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib”. Rektor bildirib ki, 20 Yanvar hadisələrində Bakı Dövlət Universitetinin müəllim, tələbə və məzunları da düşmən ordusuna sinə gərib. Onlardan qəhrəmancasına şəhidlik zirvəsinə ucalanlar olub: “Şəhid tələbələrimizin xatirəsi daim qəlbimizdə yaşayır. 20 Yanvar hadisələrində özünü göstərən bu birlik, mətinlik bizə həm də 44 günlük Vətən müharibəsində şanlı Zəfəri qazandırdı. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mahir sərkərdəliyi, qətiyyəti, qüdrətli Ordumuzun rəşadəti, xalqımızın birliyi ilə qazandığımız tarixi Zəfərlə bütün şəhidlərimizin intiqamı alındı. Onların Vətən yolunda axıdılan qanı yerdə qalmadı”.

Milli Məclisin üzvləri – professor Hikmət Babaoğlu, Rizvan Nəbiyev və BDU-nun Tarix fakültəsinin dosenti Elvira Lətifova çıxışlarında 20 Yanvar faciəsinin ölkəmizin müstəqillik tarixində önəmli rolundan danışıb, şəhidlərin əziz xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıblar. Qeyd olunub ki, 20 Yanvarda xalqımız böyük faciə ilə üzləşsə də, özünün Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, müstəqillik uğrunda mübarizliyini bütün dünyaya nümayiş etdirib. 20 Yanvar azadlıq və milli istiqlalımızın başlanğıcı olub.

Tədbir BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovun ssenari müəllifliyi ilə Azərbaycan Dövlət Televiziyasının hazırladığı “Tarixin izi ilə - Qanlı şənbə gecəsi” sənədli filminin nümayişi ilə başa çatıb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş xüsusi dərslər keçirilib

***Yanvarın 17-də BDU-nun nəzdində fəaliyyət göstərən “Gənc istedadlar” liseyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş xüsusi dərslər keçirilib.***



Dərslərdə şagirdlərə Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olan 20 Yanvar facisəinin müstəqillik tarixinə əbədi qürur və şərəf səhifəsi kimi daxil olduğu bildirilib. Faciənin başvermə səbəbləri barədə dolğun məlumat verilib, mənfur düşmənlərimizin xalqımıza qarşı zaman-zaman törətdikləri qanlı cinayətlərdən bəhs edilib. Həmin dövdə xalqımızın haqq səsinin dünyaya çatdırılmasına hər formada maneələr yaradıldığı, amma buna baxmayaraq, bu qanlı hadisənin baş verməsindən dərhal sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək, 20 Yanvar hadisələrinə kəskin etirazını ifadə etməsi, haqq səsimizi bütün dünyaya çatdırması bildirilib. Həmçinin qeyd olunub ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə bütün şəhidlərimizin qisası döyüş meydanında alınıb.

Xüsusi dərslər çərçivəsində şagirdlərin 20 Yanvar faciəsinə həsr etdikləri şəkillər nümayiş olunub. Daha sonra şagirdlər liseyin kitabxanasında Ümumxalq Hüzn Günü ilə bağlı məlumat xarakterli film izləyiblər.

# BDU kollektivi Şəhidlər xiyabanını ziyarət edib



***Yanvarın 20-də Bakı Dövlət Universitetinin kollektivi 20 Yanvar faciəsinin 35-ci ildönümü münasibətilə Şəhidlər xiyabanını ziyarət edib.*** BDU əməkdaşları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə qərənfillər düzüblər.

# “Tariximizin qanlı və şanlı səhifəsi” adlı sərgi təşkil olunub

***Yanvarın 16-da BDU-da XX əsrin ən dəhşətli hadisələrindən biri olan 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar “Tariximizin qanlı və şanlı səhifəsi” adlı ənənəvi kitab sərgisi təşkil olunub.***



Elmi Kitabxananın təşkil etdiyi sərgidə 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan, rus və digər dillərdə məlumatlar, kitablar nümayiş olunub. Burada “20 Yanvardan başlanan azadlıq”, “Soyqırım analardan başlanır”, “20 Yanvar. Tariximizin qanlı və şanlı səhifəsi”, “20 Yanvar – Qan yaddaşımız”, “Çernıy yanvar”, həmçinin Qüdrət Əbdülsəlimzadənin “20 yaşlı Yanvar”, “Nikbin faciə” və “Qanlı yanvardan 15 il keçdi”, Sona Həsənlinin “Şəhidlərimiz qürur yerimiz”, Səriyyə Müslümqızının “Qar üstünə qan yağırdı”, Rafiq Səməndərin “Şəhidlər”, Faiq Balabəylinin “Kəsilməyən həyəcan fiti”, Tacir Qurbanov, Almara Nəbiyeva, Maral Qocamanın həmmüəllifi olduqları “Azadlıq carçıları”, Hacı Niftalı Şıxların “Dünyamızın 20 Yanvar faciəsi”, Boran Əzizin “Mart faciəsından Hoca`lıya: Azərbaycan`da ermenilerin türk soykırımı” kitabları və digər nəşrlər sərgilənir.

Sərgidə BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdlərinin Qanlı Yanvar hadisələrini əks etdirən rəsm əsərləri, həmin müdhiş gecənin dəhşətlərini göstərən fotolar da nümayiş olunub.

# BDU ilə Qazaxıstanın Kunaev Universiteti arasında anlaşma memorandumu imzalanıb



***Yanvarın 22-də BDU ilə Qazaxıstanın Kunaev Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və Qazaxıstanın Kunaev Universitetinin rektoru Jazira Ömürəli imzalayıblar.

BDU-nun regionun lider ali təhsil müəssisələrindən biri olduğunu vurğulayan rektor Elçin Babayev Universitetin tarixi, beynəlxalq əlaqələri, tədris və tədqiqat sahəsində son illərdə əldə etdiyi uğurları barədə ətraflı məlumat verib. O, iki ölkə arasında mövcud olan möhkəm əlaqələrin təhsildə və elmdə də dərinləşdirilməsinin vacibliyini qeyd edib.

Rektor bildirib ki, BDU ilə qardaş Qazaxıstanın ali məktəbləri arasında yüksək səviyyəli əməkdaşlıq mövcuddur. BDU Qazaxıstanın 3 universiteti ilə ikili diplom proqramı həyata keçirir. Rektor imzalanan memorandumun hər iki universitetin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Qazaxıstanın Kunaev Universitetinin rektoru Jazira Ömürəli də BDU ilə birgə layihələrin həyata keçirilməsi üçün imkanların böyük olduğunu deyib, xüsusilə hüquq, beynəlxalq münasibətlər, kibertəhlükəsizlik kimi sahələr üzrə əməkdaşlığa xüsusi maraq göstərdiklərini vurğulayıb.

Memorandum çərçivəsində hər iki universitetdə tədris və təlim prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Elm, təhsil və mədəniyyət sahələrində birgə layihələrin, tədbirlərin təşkili, ortaq elmi tədqiqatların həyata keçirilməsi, akademik, elmi və mədəni mobilliyin inkişafı, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsi də memorandumda əks olunub.

# BDU-da "Qida və su təhlükəsizliyinin təkmilləşdirilməsində müasir avadanlıq və metodların tətbiqi" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib



***Yanvarın 22-də BDU, "Bayramlı Group" MMC və Almaniyanın "AnalytikJena" şirkətinin birgə təşkilatçılığı ilə "Qida və su təhlükəsizliyinin təkmilləşdirilməsində müasir avadanlıq və metodların tətbiqi" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib.***

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, bu mühüm tədbir qlobal miqyasda aktual olan qida və su təhlükəsizliyi məsələlərinin müzakirəsi üçün imkan yaradır və ölkədə dövlət-özəl tərəfdaşlığının uğurla həyata keçirildiyini göstərir. Azərbaycanda qida və su təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə müasir texnologiyaların tətbiqi, qida təhlükəsizliyi standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı islahatlar həyata keçirilir. BDU da bu proseslərin bir parçası kimi sənaye və biznes tərəfdaşları ilə birlikdə ölkəmizin inkişafına töhfə verir.

Rektor diqqətə çatdırıb ki, BDU-da yaradılan "Ekoməkan" və ECOLEAD Klinikası qida və su təhlükəsizliyi, ekoloji problemlərin həlli və təbii resurslardan səmərəli istifadə sahələrində yeni yanaşmaların tətbiqinə xidmət edir: "BDU-da qida təhlükəsizliyi ilə bağlı müxtəlif tədqiqatlar aparılır, müasir laboratoriyalar qurulur və gənc mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə BDU-nun elmi-tədqiqat mərkəzlərində ən son texnologiyalar tətbiq olunur. Bu konfransın təşkilində tərəfdaşımız olan "Bayramlı Group" MMC və "AnalytikJena" şirkətləri ilə əməkdaşlığımız qida və su təhlükəsizliyi sahəsində biliklərin paylaşılması və yeni texnologiyaların tətbiqi baxımından əhəmiyyətlidir. Hər iki şirkətin mütəxəssislərinin təqdim edəcəyi müasir analitik avadanlıqlar və qabaqcıl metodlar barədə çıxışlar iştirakçılara bu sahədə innovativ həlləri və tətbiq imkanlarını yaxından tanımaq imkanı verəcək".

"Bayramlı Group" MMC-nin təsisçisi və direktoru Cavid Bayramlı dövlət-özəl tərəfdaşlığının uğurlu nümunəsi olan konfransın ölkəmizdə qida və su təhlükəsizliyinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib və tədbirin işinə uğurlar arzulayıb. O qeyd edib ki, "Bayramlı Group" Azərbaycan, Türkiyə, Gürcüstan, Orta Asiya və Ərəb ölkələrində molekulyar bioloji laboratoriyalarının qurulması, layihələndirilməsi və təchizatını həyata keçirir. Şirkət dövlət-özəl işbirliyi çərçivəsində bir sıra qurumlarla, o cümlədən BDU ilə uğurlu layihələr həyata keçirir.

Konfransın elmi sessiyasında "AnalytkJena" şirkətinin regional meneceri Marina Muxinanın "AnalytkJena - analitik avadanlıqlar sahəsində innovativ inkişafın lideri", "Fasiləsiz spektr mənbəyi ilə atom absorbsiyası: ContrAA seriyasının atom absorbsiya spektrometrləri. Bərk nümunələrin eyni vaxtda fon korreksiyası və təhlili", "Bayramlı Group"un analitik avadanlıqlar üzrə mütəxəssisi Aynur Ömərlinin "Atom absorbsiya üsulu ilə laboratoriya analizlərinin həlləri (NovAA800, Zeenit)", "AnalytkJena" şirkətinin əməkdaşı Oliver Büttelin "Əsas komponentlərin ICP-MS və ICP-OES fonunda ultra-iz konsentrasiyalarının təhlili üçün yüksək ayırdetmə qabiliyyətinə malik optik emissiya spektroskopiyası" adlı məruzələri dinlənilib.

Konfransda atom absorbsiya spektroskopiyası, ICP-MS və TOC/TN analizləri kimi metodların tətbiqi, qida keyfiyyətinə nəzarət, tullantıların idarə olunması və ekoloji problemlərin həlli kimi sahələrdə innovativ yanaşmalar müzakirə olunub. Konfrans elmi məruzələrlə davam edib.

# Son bir ildə BDU-nun Hirş indeksi 11 bal artaraq 70 olub

***"QS World University Rankings 2025"də 179 pillə irəliləyərək, 951-1000 aralığında qərarlaşan, tələbə-müəllim nisbəti (faculty-student ratio) indiqatoru üzrə dünyada 373-cü mövqeyə, məşğulluq göstəriciləri (employer outcomes) üzrə isə 271-ci mövqeyə yüksələn və beləliklə, müxtəlif indiqatorlar əsasında qiymətləndirmə nəticələrinə əsasən, ölkədə lider mövqedə qərarlaşan Bakı Dövlət Universitetinin Hirş indeksi son bir il ərzində 11 bal artaraq 70 olub. Hər bir əsərə istinadların orta sayı isə 9.05-ə qədər yüksəlib.***

"Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4568 elmi əsər nəşr edilib. Bu əsərlərə 41000-dən çox istinad edilib. Nəşr edilmiş elmi əsərlərə 2024-cü ildə 8130 istinad olunub.

2024-cü ildə "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 303 (yekun nəticələr tam deyil) elmi əsər nəşr edilib.

Onu da qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında yenə də liderdir.

BDU ailəsini təbrik edir və daha böyük uğurlar arzulayırıq!

# Bax bir sən zirvənə öyün, ay Şəhid!



Dayandı önümdə qamətin sənin,
Parlayan simanda qürurun sənin,
Qəhrəman yerişin, duruşun sənin.
Qanatdı alovun sinəni sənin
Başını əymədin düşmənə, İgid!
Vermədin fürsəti əlindən, Şəhid!
Ölmədin, yaşadın əbədi, Şəhid!

Sən bu gün qəlbimdə, ürəyimdəsən
Elimin, obamın zəfərindəsən,
Tarixin qorxmazlıq zirvəsindəsən,
Azərbaycanımın tarixindəsən,
Dünyaya nümunə igidsən, İgid!
Unutmarıq sənin haqqını, Şəhid!
Tarix parladacaq ruhunu, Şəhid!

Zəfər bayramıdır, yad etdik sizi,
Sevindik, ağladıq yad etdik sizi,
Ruhlandıq qəhərlə yad etdik sizi,
Çiçəklər hörərək yad etdik sizi.
Qəlblərdə əbədi yaşayan, İgid,
Sanma ki, sənsizdik zəfərdə, Şəhid!
Bax bir sən zirvənə öyün, ay Şəhid!

***İradə Dadaşova,***
*Tətbiqi riyaziyyat və kibernetika fakültəsi, informatika kafedrasının dosenti*

# BDU-da dövlət gənclər siyasəti uğurla həyata keçirilir

***BDU-nun əməkdaşların və təhsilalanların ictimai fəallığının artırılması, onların Universitetin və ölkənin ictimai-mədəni, sosial həyatında daha aktiv iştirak etməsi, genişmiqyaslı sosial layihələrə qoşulması, mədəni-kütləvi tədbirlərin reallaşdırılması istiqamətində bir çox layihələr həyata keçirilir.*** BDU ilə dövlət və qeyri-hökumət təşkilatları, ictimai birliklər arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, birgə sosial layihələrin reallaşdırılması istiqamətində səmərəli işlər aparılır.



Hər il olduğu kimi, 2024-cü ildə də BDU-da dövlət təşkilatları, nüfuzlu müəssisə və ictimai birliklərlə əlaqələr genişləndirilib, birgə sosial layihələrin sayı iki dəfə artıb. Ötən il BDU-da dövlət gənclər siyasəti, humanitar məsələlər, Heydər Əliyev irsi və azərbaycançılıq ideyalarının öyrənilməsi, milli-mənəvi dəyərlərin təbliği və s. istiqamətlərdə 900-dən artıq tədbir keçirilib.

2024-cü il ərzində Universitetin ölkədaxili əməkdaşlıq əlaqələri genişləndirilib. Belə ki, il ərzində BDU "Veysəloğlu Şirkətlər Qrupu" MMC, Milli Depozit Mərkəzi, Təhsilin İnkişafı Fondu (TİF), Azərbaycan Milli Kitabxanası (AMK), Azərbaycan Tibb Universiteti (ATU), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Ədliyyə Nazirliyinin Probasiya xidməti ilə əməkdaşlıq haqqında memorandumlar imzalayıb. BDU-da "ARB 24" televiziyasının "NewsLab" otağı, Azərbaycan Mətbuat Şurasının (AMŞ) otağı, "Türk otağı", "Xalq qəzeti"nin "Debat otağı" və Medianın İnkişafı Agentliyinin xüsusi auditoriyasının açılış mərasimləri keçirilib.

Ötən il "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı BDU-da Tədbirlər Planı hazırlanaraq uğurla icra olunub. İl ərzində ekoloji mühitin qorunmasının gənc nəslə təşviq edilməsi istiqamətində 70-dən çox müxtəlif tədbir, seminar, görüş, intellektual yarış və s. keçirilib.

Ölkəmizin beynəlxalq nüfuzunu daha da artıran BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BDU-da 30-a yaxın tədbir keçirilib. Xüsusilə qeyd edilməlidir ki, BDU-nun 537 tələbəsi beynəlxalq tədbidə könüllü qismində iştirak edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən mükafatlandırılıb.

2024-cü ildə BDU-da bir sıra xüsusi layihələr və tədbirlər də həyata keçirilib. Bunlardan BDU-nun Tələbə Gənclər Təşkilatının "Gənclik həftəsi 2", "Tələbədən məktəbliyə", "COP29 həftəsi" layihələri, Azərbaycan Mətbuat Şurası ilə birgə "I Gənc mədəniyyət müxbirləri məktəbi", 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş Kitab Sərgisi, Dövlət Məşğulluq Agentliyinin təşkilati dəstəyi ilə Karyera Festivalı, "Regional İnkişaf" İctimai Birliyi ilə birgə təmizlik aksiyası, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikasının BDU-da tibbi aksiyası, "Kapital Bank"la birgə "Doğru yolun başlanğıcı" adlı təlim proqramı, Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc proqramçılar" müsabiqəsi, "Gənc Liderlər" Forumu, "BDU könüllüləri"nin "Könüllülük həftəsi", "Ümummilli Lider: Heydər Əliyev mühazirələri" layihələri, BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyinə həsr olunmuş Respublika konfransı, YAP Yasamal rayon təşkilatı ilə birgə "Heydər Əliyev mühazirələri" layihəsi, "Yüksəliş" müsabiqəsinin qalibləri ilə silsilə görüşlər, "Qlobal iqlim maliyyələşməsi: ədalətli və davamlı həllər" mövzusunda COP modeli simulyasiya konfransı kimi tədbir və layihələri qeyd etmək olar.

BDU-nun tələbə təşkilatları həmişə olduğu kimi, ötən il də aktiv fəaliyyət göstərib. İl ərzində BDU-nun Tələbə Gənclər Təşkilatının xətti ilə 161, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 126, "BDU "könüllüləri" təşkilatı tərəfindən isə 389 tədbir keçirilib. Tədbirlər əsasən dövlət gənclər siyasəti, "Yaşıl dünya naminə həmrəylik ili", milli ideologiya, azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunun aşılanması istiqamətlərinə həsr olunub. 2024-cü il ərzində BDU-da könüllülük fəaliyyəti genişləndirilib. BDU tələbələri ölkə miqyaslı sosial layihələrdə könüllü kimi uğurla iştirak edirlər. "BDU könüllüləri" təşkilatının hazırda 1500 üzvü var. BDU-nun tələbə təşkilatları cari il ərzində Universitetdən kənarda 100-dən çox müxtəlif tədbir, layihə, yarış və təlimdə iştirak ediblər.

Ötən il BDU tələbələri müxtəlif səpkili 40-dan çox beynəlxalq və ölkədaxili yarışda iştirak edib, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə öz layiqli töhfələrini veriblər.

***Ramin Səmədov***
*Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri*

# BDU-nun olimpiada qalibi olan tələbəsi: "Riyaziyyat həyata baxış bucağımı dəyişib"

***Ali təhsilimizin flaqmanı olan BDU-nun uğurunun sirri həm də onun yüksək biliyə malik tələbəgənclərindədir. Belə tələbələrimizdən biri də Vüqar Quliyevdir. İki dəfə Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında qalib olan müsahibimizin həyat tərzinə çevrilən riyaziyyat onun üçün həm də uğurun açarıdır. Vüqarın məqsədi riyaziyyat elmində yeniliklərlə yanaşı, fərq yaratmaqdır. Artıq onun öz yetirmələri də var...***



***- Vüqar, özünü bir qədər təqdim edərdin.***

- Tovuz rayonu Çeşməli kənd tam orta məktəbində təhsil almışam. Sonradan Bakıdakı Şuşa rayonu Malıbəyli kənd 1 nömrəli tam orta məktəbində təhsilimi davam etdirdim. 2021-ci ildə BDU-nun Mexanika-riyaziyyat fakültəsinin "Riyaziyyat" ixtisasına müsabiqədənkənar qəbul olundum. Müsabiqədənkənar qəbul olunmağıma səbəb isə Respublika Fənn Olimpiadalarındakı (RFO) uğurlarım idi. Riyaziyyat fənni üzrə IX sinifdə bürünc (III yer), X sinifdə qızıl (I yer), XI sinifdə isə gümüş medala (II yer) layiq görülmüşdüm. Buna görə də özümə daha yaxın bildiyim "Riyaziyyat" ixtisasını seçdim. Hazırda isə BDU-nun Mexanika-riyaziyyat fakültəsində "Riyazi analiz" ixtisaslaşması üzrə magistratura təhsili alıram.

***- Riyaziyyata həvəsin necə yaranıb? Nə üçün bu ixtisas?***

- Riyaziyyata kiçik yaşlarımdan həvəsim olub. Atam riyaziyyatı yaxşı bilirdi, həvəsimi görüb, mənimlə daha çox məşğul olmağa başladı. Sonradan məktəbdə müəllimlərimin göstərdiyi diqqət, Universitet dövrünün mənə qatqıları təhsil aldığım ixtisasa daha da bağlanmağıma səbəb oldu. Gələcəkdə riyaziyyat üzrə xaricdə təhsil və araşdırma imkanlarından yararlanmağı düşünürəm. Əsas məsələ öyrənmək üçün yaxşı fürsətlərin olmasındadır.

***- Nə üçün müsabiqədənkənar qəbulda məhz BDU-nu seçdin?***

- Bakı Dövlət Universitetinin köklü riyaziyyat məktəbi, yaxşı müəllimləri var. Bu baxımdan BDU mənim üçün ideal idi. Və mən yanılmamışam.

***- Riyaziyyatı sənə daha çox sevdirən və ya diqqətini nisbətən çox çəkən hansısa nəzəriyyə, teorem və ya araşdırma varmı?***

- Riyaziyyatda ədədlər nəzəriyyəsi mənə çox maraqlı gəlir. Burada hələ də bir çox açıq məsələlər var. Məsələn, məşhur Riemann hipotezi, yaxud da sadə ədədlər haqqında fərziyə ilə bağlı həll olunmamış məqamlar var. Bu tip məsələlər hər kəsin marağını cəlb etsə də, çox çətindir. Amma riyaziyyatçılar üçün ən maraqlısı da bu tip çətin həlli olan məsələlər üzərində çalışmaqdır. İxtisaslaşmam olan riyazi analiz də mənə çox maraqlı gəlir. Fikrimcə, riyaziyyatı maraqlı edən cəhətlərdən biri də çətin olması ilə bərabər, hər yerdə bənzər ideyaların olmasıdır. Bir-birinə bənzər ideyalar fərqli yerlərə tətbiq edilir, bu da onun heç bir sahəsini sıxıcı etmir.

***- Riyaziyyat doğrudan belə çətin elmdir, yoxsa öyrənməyin daha asan metodları var?***

- Əslində riyaziyyat çətindir, amma əsas olan çətini tapmaq üçün özünüzdə həvəs yaratmaqdır. Asanı əldə etmək marağı o qədər də cəlb etmir. Öyrənməyin asan yolu isə sahəni kiçik yaşlardan sevməkdən başlayır. Riyaziyyata olan marağım məktəb dövründən olimpiada hərəkatına qoşulmağıma səbəb oldu. RFO-dan sonra Elm və Təhsil Nazirliyinin beynəlxalq olimpiadalar komandasına qoşuldum. Oradakı dərslərə də qatılırdım. Beynəlxalq Riyaziyyat Olimpiadasında (IMO), Balkan Riyaziyyat Olimpiadasında (BMO) və Qazaxıstanda keçirilən Beynəlxalq Jautıkov Olimpiadasında iştirak etmişəm. Sonradan BDU-nun təşkil etdiyi Riyaziyyat üzrə tələbələr arasında Respublika Olimpiadasında qalib olmağımız Bolqarıstanda keçirilən olimpiada üçün bir qapı oldu.

***- Bolqarıstanda iki il eyni müsabiqədə birincilik qazanmaq necə bir hissdir?***

- 3 nəfərlik komanda şəklində getdiyimiz və dünyanın 50-dən çox universitetinin iştirak etdiyi Beynəlxalq Riyaziyyat Olimpiadasında iki dəfə BDU-nu təmsil etmişik. Hər iki olimpiadada iki gün ərzində 10 saat ərzində 10 sual - isbatı tələb edilən suallar təqdim edilirdi. Təbii ki, sualların çətinliyi və ondan irəli gələn narahatlıq hissinin sonunda qalib olmaq böyük sevincdir. Asandan çətinə doğru sıralanan suallar içərisində sonuncu ən çətini olur və onu isbat etmək bəzən insana imkansıza nail olmaq kimi gəlir. Fikrimcə, elə riyaziyyatı sevmə səbəbim də budur - çətin mübarizənin sonundakı böyük qələbə və onun gətirdiyi rahatlıq hissi. Bu sevinci başqa heç nə əvəz etmir.

***- Tələbə olmağına baxmayaraq, artıq sənin də öz yetirmələrin var...***

- BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyində olimpiadalara hazırlaşan uşaqlara dəstək oluram. Hətta ötən il məşğul olduğum iki nəfər VII sinif şagirdi RFO-da riyaziyyat fənni üzrə qızıl medala (I yerə) layiq görüldü. Uşaqlarda bu sahəyə maraq var. Gənc yaşlardan prosesin içində olmaq artıq gələcəkdə onların bir neçə addım qabaqda olması deməkdir.

***- Sənin üçün örnək olan riyaziyyatçı varmı?***

- Bəzən kiməsə bənzəməyə və ya onun yolu ilə getməyə çalışmaq böyük düşünməyimizin qarşısını alır. Bu sahədə kiminsə işlərindən nümunə götürməkdən çox, sadəcə riyaziyyatı öyrənmək istəyirəm. Çünki riyaziyyatda uğur ölçülməsi çətin olan bir şeydir. Uşaqlıqdan işlərini bəyənərək oxuduğum macar riyaziyyatçı Paul Erdös XX əsrin ən məhsuldar alimidir. Dövründə həddindən çox elmi məqalələri çap olunduğu üçün indi hətta "Erdös ədədi" ifadəsi yaranıb. Nə vaxtsa bu cür məqalələr çap etdirməyə başlasam, "Erdös ədədi" mənim üçün bir stimul olacaq.

***Hazırladı:***
***Nurlan Cəbrayılzadə***

# BDU və Buxara Dövlət Universiteti arasında əməkdaşlıq əlaqələri genişləndirilir



***Yanvarın 18-də BDU-nun rektoru Elçin Babayev və Buxara Dövlət Universitetinin rektoru Obidjon Həmidov arasında görüş keçirilib.***

Görüşdə hər iki universitet arasında mövcud əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, yeni birgə layihələrin icrası və elmi-tədqiqat sahəsində təcrübə mübadiləsinin artırılması məsələləri müzakirə olunub.

Görüş zamanı rektor Elçin Babayev BDU-nun tarixi, beynəlxalq əlaqələri və prioritet istiqamətləri haqqında ətraflı məlumat verib. O, Universitetin Azərbaycan elmi və təhsilindəki lider mövqeyini vurğulayaraq, beynəlxalq əməkdaşlıqların əhəmiyyətini qeyd edib. Rektor, həmçinin, Buxara Dövlət Universiteti ilə əməkdaşlığın hər iki ali təhsil müəssisəsinin akademik və elmi fəaliyyətinə yeni töhfələr verəcəyinə əminliyini ifadə edib.

Buxara Dövlət Universitetinin rektoru Obidjon Həmidov isə öz növbəsində rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyət istiqamətləri, beynəlxalq layihələrdə iştirakı və elmi nailiyyətləri haqqında məlumat verib. O, BDU ilə əməkdaşlığı strateji əhəmiyyətli bir addım kimi qiymətləndirərək, bu əlaqələrin inkişaf etdirilməsi üçün bir sıra təkliflər irəli sürüb.

Görüşdə iki universitet arasında tələbə və müəllim mübadiləsinin təşkili, birgə tədqiqatların aparılması, ortaq tədris proqramlarının hazırlanması və beynəlxalq konfransların keçirilməsi ilə bağlı müzakirələr aparılıb. Tərəflər, həmçinin, elm, təhsil və innovasiya sahələrində qarşılıqlı maraq doğuran məsələlər üzrə tərəfdaşlıq haqqında əməkdaşlıq sənədlərinin hazırlanması və imzalanması barədə razılığa gəliblər.

# BDU əməkdaşları DIRNA layihəsi çərçivəsində tədbirdə iştirak ediblər

***Yanvarın 23-də BDU-nun Elmi Kitabxanasının əməkdaşları BDU-nun tərəfdaş olduğu Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihə çərçivəsində "Təhsil və tədqiqatda süni intellekt" mövzusunda keçirilən onlayn tədbirdə iştirak ediblər.***

İzmir Yüksək Texnologiya İnstitutunun kitabxana direktoru Gültekin Gürdal süni intellektin mahiyyəti, məqsədi, üstünlükləri, süni intellekt texnologiyalarının tədris və akademik tədqiqat prosesinə inteqrasiya olunması mexanizmləri və s. haqqında təqdimatla çıxış edib.

O, süni intellektin məqsədinin insan zəkasının təqlidi deyil, kompüter proqramlarını daha ağıllı etmək, insan zəkasının da edə bildiyi tapşırıqları daha sürətli, dəqiq və şəffaf yerinə yetirə bilən avtomatlaşdırılmış sistemlər yaradılması olduğunu bildirib.

# AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da



***Yanvarın 31-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Vüqar Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

BDU rektoru Elçin Babayev qonaqlara son illər Universitetdə həyata keçirilən yeniliklər barədə məlumat verib, ölkədaxili və beynəlxalq əməkdaşlığın, işəgötürənlərlə əlaqələrin prioritet xarakter daşıdığını bildirib.

O qeyd edib ki, BDU-nun Jurnalistika fakültəsi ölkədə jurnalist hazırlayan əsas bazadır. Son illər BDU-nun Medianın İnkişafı Agentliyi, Audiovizual Şura, Mətbuat Şurası da daxil olmaqla, müxtəlif media qurumları ilə səmərəli əməkdaşlığı yaranıb. Jurnalistika fakültəsində MEDİA, Mətbuat Şurası, "ARB24", "Xalq qəzeti"nin xüsusi otaqları açılıb. Bu otaqların hər biri tələbə-jurnalistlər üçün nəzəri biliklərin praktikada tətbiqi baxımından əvəzsiz rol oynayır. Rektor BDU-nun ölkəmizin klassik, ən böyük agentliyi olan AZƏRTAC-la müxtəlif istiqamətlərdə əməkdaşlıq, birgə layihələr həyata keçirmək imkanlarının böyük olduğunu, bunun dövlətin informasiya təhlükəsizliyinə fayda verəcəyini bildirib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev isə bildirib ki, son iki ildə agentlikdə informasiya siyasəti yeni səpkidə qurulub. 8 dildə operativ xəbərlər yayan, 60-a yaxın xarici media qurumu ilə əməkdaşlıq edən və 24 ölkədə müxbir məntəqəsi olan AZƏRTAC kadr bazasını daim yeniləyir, gənclərə üstünlük verir. Bu baxımdan BDU ilə əməkdaşlıq hər iki quruma fayda verə bilər.

Görüşdə iki qurum arasında əməkdaşlığın genişləndirilməsi və yeni layihələrlə bağlı müzakirələr aparılıb.

# İnformasiya və sənəd menecmenti fakültəsinə keçid balları və qəbul olan tələbələrin sayı artıb

***Son 3 ildə İnformasiya və sənəd menecmenti fakültəsinə keçid balları və qəbul olan tələbələrin sayı artıb.***

Bu, fakültənin 2024-cü il üzrə hesabatında öz əksini tapıb. Hesabatda qeyd olunub ki, ötən il fakültənin "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisasına qəbul planı 98 faiz, "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisasına qəbul planı 100 faiz dolub.

Hesabat ilində fakültə əməkdaşları tərəfindən 5 dərs vəsaiti, 40 proqram, 3 monoqrafiya, xarici jurnallarda 59 (onlardan 53-ü indekslənən jurnallarda – 1 məqalə Q1 kvartilli, 1 məqalə Q4 kvartilli jurnalda olmaqla), yerli elmi jurnallarda isə 43 elmi məqalə çap olunub. Ümumilikdə fakültə alimləri tərəfindən 120 elmi tezis nəşr edilib.

Ötən il fakültədə 22 elmi seminar, 10 ustad dərsi təşkil edilib. Tələbə Elmi Cəmiyyətinin xətti ilə elmi tədqiqat işlərinə 50-dən çox tələbə cəlb olunub. 30-dan artıq tələbə konfrans və elmi seminarlarda məruzə edib.

Fakültənin aparıcı 10 aliminin orta Hirş indeksi 7-yə bərabərdir. Dosentlər Pərviz Kazimidə bu göstərici 21, Nadir İsmayılovda isə 13-dür.

# BDU-da Dünya Qoruqlar və Milli Parklar Günü ilə əlaqədar təlim



***Yanvarın 13-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin əməkdaşları Ekologiya və torpaqşünaslıq fakültəsində 11 yanvar – Dünya Qoruqlar və Milli Parklar Günü ilə əlaqədar təlim keçirib.***

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin şöbə müdiri Elnur İbrahimov və həmin şöbənin məsləhətçisi Aytac Xələfli təqdimatlarında xüsusi mühafizə olunan təbiət əraziləri (milli park, dövlət təbiət qoruğu və dövlət təbiət yasaqlığı), onlarda həyata keçirilən ən son yeniliklər barədə ətraflı məlumat veriblər. Təqdimatlarda gələcəkdə respublikamızda yaradılması nəzərdə tutulan Abşeron palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun bazasında "Geopark", Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında "Biosfer Rezervuatı" haqqında da ətraflı danışılıb. Yeni yaradılması planlaşdırılan iki Milli Park – Bozdağ Milli Parkı və İlisu Dövlət Təbiət Qoruğunun bazasında yaradılacaq İlisu Milli Parkından da bəhs edilib.

Qeyd olunub ki, ölkəmizdə hazırda 10 milli park və 10 dövlət təbiət qoruğu fəaliyyət göstərir.

# BDU və "iSchool Education Center" əməkdaşları arasında görüş

***Yanvarın 16-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin və "ISchool Education Center"in əməkdaşları arasında görüş keçirilib.***

Görüşdə müzakirə edilən əsas məsələlər ikitərəfli əməkdaşlığın təmin edilməsi, tələbə və məzunların təcrübə proqramları ilə bağlı məlumatlandırılması olub. Bildirilib ki, "ISchool Education Center"in təklif etdiyi təcrübə proqramlarında ingilis dilində "Riyaziyyat müəllimliyi" ixtisasında təhsil alan tələbələrə üstünlük verilir.

Görüşdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müxtəlif birgə layihələrin hazırlanması və icrası kimi məsələlər müzakirə olunub.

# Əcnəbi tələbə: “BDU akademik və şəxsi inkişafımda əvəzsiz rol oynayıb”

***Müsahibimiz Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən 2024-2025-ci tədris ili üçün “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramının qalibi, Jurnalistika fakültəsinin I kurs doktorantı Ehab Məhəmməd İsmayıldır.***

Misir Ərəb Respublikasından olan Ehab İsmayıl qrant proqramı çərçivəsində qazandığı təcrübə, Azərbaycan təhsil sistemi, BDU-da tələbə həyatı haqqında fikirlərini paylaşıb. O, həmçinin Azərbaycanın beynəlxalq təhsil sahəsindəki mövqeyi, gələcək hədəfləri barədə də planlarını bölüşüb.

***- Ehab, akademik və şəxsi inkişaf baxımından BDU-da təhsil almaq sənə hansı üstünlükləri qazandırıb?***

- BDU mənim həm akademik, həm də şəxsi inkişafımda əvəzsiz rol oynayıb. Akademik baxımdan universitetin təcrübəli müəllimlərindən dərs alaraq biliklərimi daha da zənginləşdirdim. Jurnalistika fakültəsindəki təhsil mənə yalnız nəzəri bilik deyil, həm də praktiki təcrübə qazandırıb. Universitetdə keçirilən seminarlar, təcrübə proqramları və müxtəlif layihələr real iş mühitində fəaliyyətimi nümayiş etdirmə imkanı yaradıb. BDU-nun azərbaycanlı və xarici tələbələri ilə daim ünsiyyətdəyəm, bu, mənim formalaşmağıma da yaxşı təsir edir. Şəxsi inkişaf baxımından BDU mənə liderlik bacarıqları, özgüvən, digər insanlarla daha yaxşı ünsiyyət qurma qabiliyyəti aşılayıb.



***- Tələbə həyatın necə keçir? Gündəlik fəaliyyətin və maraqların haqqında danışa bilərsənmi?***

- Tələbə həyatım maraqlı və rəngarəngdir. BDU-nun “Tələbə Evi”ndə yaşayıram. Orda tələbələr üçün lazım olan bütün şərait yaradılıb. Həm dərslərimi, həm də sosial həyatımı bir-birinə paralel təşkil etməyə çalışıram. Tələbəlik yeni dostlar tapmaq, müxtəlif ideyalarla tanış olmaq, təcrübə qazanmaq üçün gözəl bir fürsətdir. Təbii ki, bəzən çətinliklər də olur, amma bu, tələbə həyatının bir parçasıdır. Əsas odur ki, bu çətinliklərdən dərs çıxarmağı bacarasan. Asudə vaxtlarımda Azərbaycanın bölgələrini gəzməyə çalışıram. Şəki, Quba, Qəbələ, Şamaxı, Gəncə, İsmayıllı kimi şəhərlərə səfər etmişəm. Azərbaycan xalqının qonaqpərvərliyi, gülərüzlülüyü çox diqqətimi çəkdi. Mətbəxiniz də çox dadlıdır. Xüsusilə xaş, xəngəl, dolma sevdiyim milli mətbəx nümunələridir.

***- Ehab, ölkəmizin təhsil sistemi haqqında düşüncələrini bizimlə bölüşərdin.***

- Azərbaycan təhsil sistemində son illərdə çox müsbət dəyişikliklər baş verib. Bu inkişafın bir hissəsi olmaqdan məmnunam. BDU-da müasir tədris metodlarının tətbiqi, beynəlxalq əlaqələrin gücləndirilməsi və yeni təhsil proqramlarının hazırlanması çox sevindiricidir. Bu, təhsil sisteminin daha praktik yönümlü olması ilə əlaqədardır. Artıq universitetlərin çoxu yalnız nəzəri biliklərlə məhdudlaşdırmır, tələbələrə real həyat bacarıqları qazandırmaq üçün müxtəlif təcrübə proqramları və layihələr təqdim edirlər. Xüsusilə tələbələrin beynəlxalq səviyyədə təhsil alması üçün yaradılan imkanlar çox dəyərlidir. Mən magistr təhsilimi də məhz BDU-nun Jurnalistika fakültəsində almışam. Müəllimlərim səmimi və diqqətlidirlər, tələbələrə yalnız bilik vermək deyil, onları şəxsi inkişafa yönəltmək üçün əllərindən gələni edirlər. Mənim üçün müəllimlərlə açıq dialoq qurmaq çox vacibdir. Bu, tələbələrin daha uğurlu və motivasiyalı olmasına kömək edir.

***- Azərbaycan mədəniyyəti və xalqı haqqında nə düşünürsən? Ölkəmizin mədəniyyəti, adət-ənənələri və insanları ilə bağlı fikirlərin necədi?***

- Azərbaycan xalqı qonaqpərvərdir. Mən bir çox ölkələrdə olmuşam, amma Azərbaycan xalqının qonaqpərvərliyi və insanlara olan yaxınlığı mənə çox təsir edib. Düşünürəm ki, Misir və Azərbaycan xalqı arasında böyük bir fərq yoxdur. Hər iki xalq mehriban və səmimidir. Hər iki mədəniyyətin zəngin tarixi və ənənələri var, amma insani münasibətlərdəki oxşarlıqlar daha çox diqqətimi çəkib. Azərbaycan xalqı da Misir xalqı kimi ailə və dost münasibətlərinə çox önəm verir, bu da cəmiyyətdəki əlaqələrin daha sıx və dərin olmasına səbəb olur.

***- Azərbaycanın media sistemini izləyirsənmi?***

- Bəli, Azərbaycan mediasını yaxından izləyirəm. Azərbaycan mediasında son zamanlar sosial şəbəkələr və onlayn platformaların rolu böyükdür. Lakin ənənəvi media da öz əhəmiyyətini itirmir. Ən çox xəbər agentliklərini, xüsusilə AZƏRTAC-ı izləyirəm, çünki orada daha rəsmi və dəqiq məlumatlar təqdim olunur. Tədqiqat işim dünya siyasətində medianın rolu ilə bağlı olduğuna görə, bu istiqamətdə tendensiyaları izləyirəm. Milli televiziya kanallarına da baxmaq imkanım olur. AZTV, İctimai TV ən çox izlədiyim telekanallar sırasındadır. AZƏRTAC-da keçdiyim təcrübə mənim üçün çox önəmli və dəyərli oldu. Burada real jurnalistika işinin necə aparıldığını, xəbər yazılmasında doğru yanaşmanın nələr olduğunu öyrəndim. AZƏRTAC-da çalışarkən peşəkar jurnalistlərdən çox şey öyrəndim və onların iş prinsipini daha yaxından tanıdım. Burada əldə etdiyim təcrübə beynəlxalq standartlara uyğun media bacarıqlarımı inkişaf etdirməyimə kömək edir. Təcrübə həm də mənə medianın dövlət və xalq arasında körpü rolunu oynadığını göstərdi. Bu, gələcəkdə peşəkar olaraq fəaliyyət göstərəcəyim sahə üçün çox vacib bir məqamdır.

***- Gələcəklə bağlı planların nələrdir?***

- İlk növbədə jurnalistika sahəsində daha da ixtisaslaşmaq və beynəlxalq media orqanında fəaliyyət göstərmək istəyirəm. Mənim üçün ən böyük hədəf peşəkar jurnalist olmaq və tədqiqatlarımı, yazılarımı dünyaya təqdim etməkdir. Elm və təhsil sahəsində də fəaliyyət göstərmək istəyirəm. Təhsil alarkən qazandığım bilik və təcrübələrə əsaslanaraq, gələcəkdə həm akademik sahədə, həm də praktiki jurnalistikada böyük uğurlar qazanmağı hədəfləyirəm. "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" bu baxımdan mənə çox gözəl bir fürsət yaradıb.

# BDU-nun çinli tələbəsi: “Azərbaycanın təhsil sistemi, sosial mühiti mənim üçün çox faydalı oldu”

***You Xin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Hökumətlərarası Təqaüd Proqramı ilə doktorantura təhsili alır. Magistratura səviyyəsi üzrə təhsilini də BDU-da alan You Xin “Azərbaycan-Çin beynəlxalq əlaqələri” mövzusunda elmi tədqiqatlar aparır. O, bu sahədəki biliklərini artırmaqla yanaşı, həm də Azərbaycan və Çin arasındakı əlaqələrin inkişafına töhfə vermək istəyir.***

You Xin Azərbaycanda və BDU-da keçirdiyi illərin onun üçün çox dəyərli olduğunu, burda əldə etdiyi bilik və təcrübənin inkişafında mühüm rol oynadığını vurğulayır:

***- Azərbaycanda təhsil almaq qərarını necə verdiniz?***

- Çində təhsil aldığım dövrdə universitet müəllimlərim Azərbaycanda təhsil alma imkanından bəhs edirdilər. Hökumətlərarası Təqaüd Proqramı barədə məlumat aldım və proqrama müraciət etmək qərarına gəldim. Beynəlxalq əlaqələr sahəsində Azərbaycanın təhsil sisteminin




yüksək səviyyədə olduğunu eşidəndən sonra burada təhsil almağı daha cəlbedici hesab etdim.

***- BDU-da ilk təhsil illərinizi necə xatırlayırsınız?***

- Bu, mənim üçün unudulmaz anlarla dolu bir dövr idi. Çoxlu dostlar qazandım, isti münasibətlərin içində olmaq məni daha da həvəsləndirdi. Azərbaycanın təhsil sistemi, qonaqpərvər insanları, sosial mühiti mənim üçün çox faydalı oldu. Bu müsbət təcrübə məni növbəti təhsil pillələrimi də Azərbaycanda almağa yönəltdi.

***- Təhsil müddətində hansı təcrübələri qazandınız?***

- Magistr təhsilim beynəlxalq jurnalistika və informasiya siyasəti üzrə olub. Magistr təhsilim zamanı AZƏRTAC-da təcrübə keçdim. AZƏRTAC Çin Dövlət Agentliyi olan Sinxua ilə sıx əlaqələrə malikdir. AZƏRTAC beynəlxalq əlaqələri geniş və çoxşaxəli dövlət agentliyi kimi mənə çox qiymətli təcrübə qazandırdı. Təcrübə müddətində həm Azərbaycanın daxili xəbərləri, həm də xarici əlaqələri sahəsində dərindən bilgi topladım.

***- Hazırda hansı mövzu üzrə tədqiqat aparırsınız?***

- Hazırda Azərbaycan və Çin arasında beynəlxalq əlaqələr sahəsində tədqiqat aparıram. Mənim magistr dissertasiya işim isə Azərbaycan və Çin arasında media əlaqələrinə həsr olunmuşdu. Bu iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə olan marağım doktorantura pilləsində də tədqiqat işimə ilham verdi. Mənim məqsədim Azərbaycanla əməkdaşlığın inkişafı və gücləndirilməsi ilə bağlı ölkəmdə konkret təkliflər irəli sürməkdir.

***- Azərbaycan mədəniyyəti ilə necə uyğunlaşdınız?***

- İlk dəfə Azərbaycana gələndə yerli mədəniyyətin mənə təzadlar yaradacabğını düşündüm. Lakin zaman keçdikcə Azərbaycan mədəniyyətinə uyğunlaşmaqda çətinlik çəkmədim. Xüsusilə Novruz bayramı məni çox cəlb edir. Çində də Yaz bayramı qeyd olunur və hər iki ölkədə bayram ərəfəsində təmizlik, şirniyyat hazırlamaq və ocaq qalamaq kimi bənzər adət-ənənələr mövcuddur. Bu oxşarlıqlar mənim üçün xüsusi bir təcrübə oldu və mədəni inteqrasiya prosesini asanlaşdırdı.

***- Azərbaycanla bağlı ən çox sevdiyiniz məqam hansıdır?***

- Azərbaycanlıların qonaqpərvərliyi və səmimiyyəti məni çox təsirləndirib. Bu xüsusiyyətlər məni Azərbaycana daha yaxın hiss etdirdi. Buradakı təcrübələr mənim üçün həm akademik, həm də şəxsi inkişaf baxımından çox qiymətlidir.

***- Çin və Azərbaycan arasında əlaqələrin gələcəyini necə görürsünüz?***

- Azərbaycan və Çin arasında əlaqələrin böyük potensiala malik olduğunu düşünürəm. Xüsusilə iqtisadiyyat, ticarət və mədəniyyət sahələrində bu əlaqələr daha da genişlənə bilər. Çinin Azərbaycanla yaxın əlaqələri hər iki ölkə üçün faydalı olacaq. Gələcəkdə daha çox müştərək layihələr və təşəbbüslər həyata keçirilə bilər.

***- Gələcəklə bağlı hansı planlarınız var?***

- Gələcəkdə ölkəmə qayıtdıqdan sonra Azərbaycan və Çin arasında beynəlxalq əlaqələr sahəsində daha çoxşaxəli tədqiqatlar aparmaq və bu sahədə müxtəlif layihələrdə iştirak etmək istəyirəm. Eyni zamanda, mədəniyyətlərarası əlaqələri inkişaf etdirmək niyyətindəyəm.

***Hazırladı: Nərminə Əsədova***

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və jurnalistlər imtahan sessiyasının gedişini izləyiblər

*Yanvarın 24-də BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələrinin iştirakı ilə payız semestrinin imtahan sessiyasının gedişatı izlənilib.*



Əvvəlcə BDU-nun İctimai Nəzarət Şurasının iclası keçirilib. Rektor Elçin Babayev Şura üzvlərinə Universitetdə ötən il ərzində həyata keçirilən işlər və yeniliklər barədə məlumat verib. Qeyd edib ki, 2024-cü ildə BDU dünya və regional reytinqlərdəki mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib, qlobal akademik gücünü daha da artırıb. İl ərzində BDU həm beynəlxalq, həm ölkədaxili əməkdaşlığı genişləndirib. Bunlarla yanaşı, yeni tədris, elmi tədqiqat laboratoriyaları yaradılır, infrastruktur yenilənir.



Elçin Babayev Şura üzvlərinə imtahan sessiyasının gedişi ilə bağlı da məlumat verib. O, əvvəlki illərə nisbətən şikayətlərin və köçürmə hallarının azaldığını bildirib. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb.

Sonra İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahana nəzarət otağında prosesi müşahidə ediblər.

# Mexanika-riyaziyyat fakültəsinə 600-dən yuxarı balla qəbul olanların sayı artıb

*Son iki ildə Mexanika-riyaziyyat fakültəsinə 600-dən yuxarı balla qəbul olan tələbələrin sayı artıb.*

2024/2025-ci tədris ilində fakültənin I kursuna 600-dən yuxarı bal toplayan 78 nəfər qəbul olunub. Onlardan 13-ü 650-dən artıq bal toplayıb. 2023/2024-cü tədris ilində fakültənin I kursuna 600-dən yüksək balla 20 nəfər qəbul olub, onlardan 2-sinin balı 650-dən yüksək olub.

Fakültə tələbələri beynəlxalq və respublika olimpiadalarında uğurları ilə seçilirlər. Belə ki, Riyaziyyat üzrə Dünya Olimpiadasında fakültənin tələbələri Vüqar Quliyev I, Amil Cəbiyev isə III yeri qazanıb. Ali məktəb tələbələri arasında Riyaziyyat üzrə Respublika Olimpiadasında fakültənin 1 tələbəsi I, 2 tələbəsi II, 3 tələbəsi isə III yerləri tutub, 6 tələbə həvəsləndirici diplom alıb. Hazırda fakültədə 2 Prezident təqaüdçüsü təhsil alır.

2024-cü ildə fakültə tədris və elmi fəaliyyətində bir sıra mühüm nailiyyətlərə imza atıb. Fakültə əməkdaşlarının son 5 ildə "Web of Science" (WOS) bazasında dərc edilmiş məqalələrinin sayı 123-ə çatıb. 2024-cü ildə isə fakültənin alimləri 163 elmi məqalə nəşr etdiriblər, onlardan 60-ı beynəlxalq, 103-ü isə yerli elmi jurnallarda dərc olunub.

Fakültənin elmi fəaliyyətində seminar və konfranslar da mühüm yer tutur. 2024-cü ildə fakültədə 114 elmi seminar, 4 ustad dərsi, 76 açıq dərs və Tələbə Elmi Cəmiyyətinin 4 elmi seminarı təşkil olunub. Hesabat ilində fakültə tərəfindən 2 respublika elmi konfransı keçirilib.

Fakültənin professor-müəllim heyəti güclü elmi potensiala malikdir. Fakültədə ümumilikdə 84 professor və müəllim çalışır, onlardan 2-si AMEA-nın müxbir üzvü, 21-i elmlər, 53-ü fəlsəfə doktoru, 18-i professor və 40-ı dosentdir.

# BDU əməkdaşları DIRNA layihəsi çərçivəsində növbəti tədbirdə iştirak ediblər

*BDU-nun Elmi Kitabxanasının əməkdaşları BDU-nun tərəfdaş olduğu Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihə çərçivəsində "İnstitusional akademik arxivin icra planı" mövzusunda keçirilən növbəti onlayn tədbirdə iştirak ediblər.*

Tədbirdə İzmir Yüksək Texnologiya İnstitutunun kitabxana direktoru Gültekin Gürdal institusional akademik arxivin yaradılması, tədqiqat və təhsil resurslarının uzunmüddətli idarə edilməsi haqqında təqdimatla çıxış edib. O, institusional arxivi uzunmüddətli idarə etmək üçün həyata keçirilməli planı açıqlayıb.

Gültekin Gürdal təqdimatında DIRNA layihəsinin uzunmüddətli davamlılığı üçün güclü texniki infrastruktur və insan resurslarının inkişaf etdirilməli olduğunu vurğulayıb, milli və beynəlxalq əməkdaşlığın artırılmasının və tədqiqat nəticələrinin daha əlçatan və davamlı olmasının vacibliyinə diqqəti çəkib.

Sonda "Təşkilati struktur", "Tədqiqatın nəticəsi və texniki bacarıqların gücləndirilməsi", "İctimaiyyətlə əlaqələr və tərəfdaşlıqların qurulması", "Metadata məsələləri üzrə təşkilatlar arasında əməkdaşlıq" və s. mövzulardan ibarət plan tərəfdaş universitetlərin nümayəndələri ilə müzakirə olunub.

# BDU-da doktorant və dissertantlarla görüşlər keçirilir

*Yanvarın 22-də BDU-nun fakültələrində doktorant və dissertantlarla görüşlər keçirilib.*

İclaslarda BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru Mais Süleymanov, Doktorantura şöbəsinin müdiri Mirnamik Bəşirov, fakültələrin elmi işlər üzrə dekan müavinləri iştirak ediblər.

Görüşlər zamanı təhsil müddəti bitmək üzrə olan və yeni qəbul olmuş doktorant və dissertantlara tövsiyələr verilib, onlardan gözlənilən öhdəlik və tələblərlə bağlı ətraflı məlumatlar təqdim edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 3.27-ci və 4.7-ci bəndləri xüsusilə vurğulanıb, qaydalarda göstərilən tələblərin yerinə yetirilməsinin vacibliyi və ixtisas imtahanlarının təhsil müddətində verilməsi zərurəti qeyd edilib.

Sonda doktorantların sualları cavablandırılıb.

# İkinci "Maarifçi" təcrübə proqramını uğurla bitirənlərdən 12 nəfəri BDU-nun tələbə və məzunudur

*BDU-nun tələbə və məzunları Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə icra olunan ikinci "Maarifçi" tələbə-məzun təcrübə proqramında uğurlu nəticələr göstəriblər.*

Belə ki, Elm və Təhsil Nazirliyi, eləcə də digər qurumlarında təcrübə imkanları yaradan və 3 ay davam edən "Maarifçi" proqramını müvəffəqiyyətlə bitirən 35 nəfərdən 12-si BDU-nun tələbə və məzunudur.

Proqramın təşkilində məqsəd elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərmək olub.

# BDU ilə Qazaxıstanın Kokshetau Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Yanvarın 28-də BDU və Qazaxıstanın Kokshetau Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Kokshetau Universitetinin rektoru Saqintay Elubayev imzalayıb.

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçılar və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1996-cı ildə qoyulmuş Kokshetau Universiteti Qazaxıstanın ən nüfuzlu universitetlərindən biridir. 5 fakültə, 12 kafedraya malik universitet "Times Higher Education" dünya universitetləri reytinqində 1501+ pillədə qərarlaşır.

# “Konstitusiya və Suverenlik İli” adlı kitab sərgisi

***Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə bağlı Bakı Dövlət Universitetinin Elmi Kitabxanası “Konstitusiya və Suverenlik İli” adlı illik kitab sərgisi təşkil edib.*** Sərgidə 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması, 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 12 noyabrın Azərbaycan Respublikasının Konstitusiya Günü elan edilməsi haqda məlumatlar, Ümummilli Lider Heydər Əliyev, Konstitusiya hüququ və tarixi kimi mövzularda nəşrlər nümayiş olunub.




Azərbaycan dili ilə yanaşı, müxtəlif dillərdə olan 100-dən çox nəşrin nümayiş olunduğu sərgidə “Konstitusiya hüququ”, “Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları”, “Azərbaycanın dövlət və hüququnun əsasları”, “Osnovı Konstitutisiya i prava Azerbaydjanskoy Respubliki”, “Qeydar Aliev i Konstitutisiya Azerbaydjanskoy Respubliki” kimi dərslik və dərs vəsaitləri, həmçinin “Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası”, “Hüquqi dövlət və Konstitusiya”, “Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda” adlı nəşrlər xüsusi yer tutur.

Ulu Öndər Heydər Əliyevin şah əsəri hesab edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul edilib. 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-si Konstitusiya Günü elan olunub. 5 bölmə, 12 fəsil və 158 maddədən ibarət olan Konstitusiyaya 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə əlavə və dəyişikliklər edilib. Bütün bu tarixi proseslərin daha dərindən öyrənilməsi, tədqiqatların aparılması, gənc nəslə çatdırılmasına öz töhfəsini verəcək sərgi ilin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzi “Azərbaycan Uşaqları” İctimai Birliyi ilə əməkdaşlıq edəcək

***Yanvarın 15-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və “Azərbaycan Uşaqları” İctimai Birliyinin əməkdaşları arasında görüş keçirilib.***

Mərkəzin əsas fəaliyyətinin tələbə və məzunların əmək bazarına adaptasiyası, onların uğurlu karyera quruculuğuna yönləndirilməsi olduğu qeyd olunub. Görüşdə ikitərəfli əməkdaşlığın həyata keçirilməsi, İctimai Birliyin təcrübə proqramları ilə tələbələrin məlumatlandırılması kimi məsələlər müzakirə edilib. Birliyin təcrübə proqramlarının Sosial elmlər və psixologiya fakültəsinin “Sosial iş” və “Təhsildə sosial-psixologiya xidmətləri” ixtisaslarının, Hüquq, Jurnalistika fakültələrinin tələbələrinə yönləndirilməsi nəzərdə tutulub.

# BDU əməkdaşı Makedoniyanın Ss.Kiril və Methodius Universitetində apardığı tədqiqatların nəticələrini təqdim edib

***Yanvarın 17-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Orxan Güləhmədov “Neylon/MWCNT əsaslı nanokompozitlərin triboelektrik nanogeneratorun çıxış performansına təsiri” adlı elmi seminar keçirib.***



O, seminarda Elm və Texnologiyada Avropa Əməkdaşlığı (European Cooperation in Science and Technology – COST) proqramının “Qısamüddətli elmi missiya” (“Short-term scientific mission” (STSM)) səfər qrantı çərçivəsində Makedoniyanın Skopye şəhərində yerləşən Ss. Kiril və Methodius Universitetində “Neylon/CNT təbəqələrindən istifadə etməklə triboelektrik nanogeneratorların təkmilləşdirilməsi” (“Enhancement of triboelectric nanogenerators by using Nylon/CNT films”) mövzusu üzrə apardığı tədqiqat işinin nəticələrini təqdim edib.

BDU-nun gənc tədqiqatçısı bildirib ki, çoxdivarlı karbon nanoboruları doldurucu kimi istifadə olunan zaman onun polimer daxilində yaratdığı əlavə polyar dipollar hesabına triboelektrik nanogeneratorların (TENG) çıxış parametrləri əhəmiyyətli dərəcədə artıb. Bu cür materialların maqnit xassəli nanomateriallar (məs. $Fe_3O_4$ nanohissəcikləri və ya nanonaqilləri) ilə birgə kombinasiyasından sensor texnologiyasında istifadə etmək mümkündür. Belə TENG-lər özünü enerji ilə təmin edən və ətraf mühitin monitorinqini həyata keçirən avtonom sistemlər üçün geniş tətbiq imkanlarına malikdir.

Seminarın sonunda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# “BDU könüllüləri”nin sədri: “Təşkilatımız tələbələrin inkişafı üçün əlverişli platformaya çevrilib”

*“BDU könüllüləri” təşkilatı həmçinin müxtəlif könüllü gənclər təşkilatları ilə də əməkdaşlıq edir, birgə layihələr həyata keçirir. Belə ki, bu il 706 könüllümüz Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkil etdiyi tədbirlərdə Universitetimizi təmsil edib. Bu tədbirlər sosial dəyərlərin formalaşdırılması və davamlı strateji yanaşmaların təşviqi məqsədilə təşkil edilib.*

***Bu gün ölkəmizdə könüllülük gənclərin əsas fəaliyyət sahəsi ilə yanaşı, həyat tərzinə çevrilib. Elə Azərbaycanda da uğurla icra edilən gənclər siyasətinin əsas istiqamətlərindən biri məhz gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsidir. Azərbaycanlı gəncləri fərqləndirən əsas özəllik Vətənə sevgi, dəyərlərə bağlılıq, könüldən gələn humanizmdir.***

Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin davamı kimi 2009-cu ildə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanunu, 2020-ci ilin Azərbaycanda “Könüllülər ili” elan edilməsi icra edilən və gələcəkdə görüləcək işlərə ən böyük təkan oldu.

Hazırda ölkəmizdə ən müxtəlif fəaliyyət istiqamətləri üzrə könüllü gənclərdən ibarət qruplar, qurumlar, tabe və müstəqil təşkilatlar yaradılıb. Onların arasında “BDU könüllüləri”nin xüsusi yeri var. Hazırda BDU-nun 25 minə yaxın tələbəsi, 3 mindən çox əməkdaşı, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti arasında böyük nüfuza sahib olan “BDU könüllüləri” təşkilatı öz ətrafında 1500-ə yaxın aktiv tələbə-gənci birləşdirir. Təşkilat artıq 5 ildir ki, ölkə ali təhsilinin flaqmanı olan BDU-nun uğurlarına öz payını qatmaqdadır. “BDU könüllüləri” tələbələrininkişafı üçün şərait yaradaraq, əlverişli platformaya çevrilib. Belə ki, 2024-cü il ərzində “BDU könüllüləri” təşkilatının keçirdiyi 300-dən çox tədbir və fəaliyyətdə 13 mindən çox könüllü gənc iştirak edib.

Təşkilatın 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar təşkil etdiyi “Yaşıl Dünya Naminə” proqramı çərçivəsində 18 tədbir keçirilib, davamlı inkişaf prinsipləri və ekosistemin qorunması istiqamətlərində gənclərin ekoloji maarifləndirilməsi artırılıb.

“BDU könüllüləri” təşkilatı həmçinin müxtəlif könüllü gənclər təşkilatları ilə də əməkdaşlıq edir, birgə layihələr həyata keçirir. Belə ki, bu il 706 könüllümüz Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkil etdiyi tədbirlərdə Universitetimizi təmsil edib. Bu tədbirlər sosial dəyərlərin formalaşdırılması və davamlı strateji yanaşmaların təşviqi məqsədilə təşkil edilib.

BDU könüllüləri bu il ölkəmizin ev sahibliyi etdiyi, dünyanın ən böyük tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) da uğurlu fəaliyyət nümayiş etdiriblər. Konfransda 74 BDU könüllüsü tədbirin keçirilməsinə dəstək verməklə bərabər, iqlim dəyişmələri ilə bağlı problemlər və həll yolları haqqında məlumatlılığı təşviq etməklə konfransın uğuruna töhfə veriblər.

Bütün bunlarla yanaşı, BDU könüllüləri “Təcrübə könüllüləri” proqramı vasitəsilə Universitetin müxtəlif struktur və fakültələrində müvafiq istiqamətlər üzrə təcrübə əldə edərək, karyera quruculuğunda önəmli irəliləyişə nail olurlar. Bu günədək 18 BDU könüllüsü Universitetdə işlə təmin olunub. BDU könüllüləri digər gənclər təşkilatlarında da müxtəlif vəzifələrdə çalışır, burada əldə etdikləri təcrübələr ilə fəaliyyətlərini yüksək səviyyədə təşkil edirlər.

Qeyd olunan faktlar Azərbaycanın ən qocaman və 105 yaşlı Universitetinin 5 yaşlı könüllü təşkilatının fəaliyyətinin xülasəsidir. Ulu Öndərimizin məzunu olması ilə fəxr etdiyi, Şərqdəki ilk demokratik respublikanın bizə miras qoyduğu, ənənəvə müasirliyin vəhdətini özündə əks etdirən Universitetimizin zirvədə olması BDU könüllüləri üçün ən böyük stimul, qürur yeridir. İnanırıq ki, Vətənimizə, dövlətimizə, BDU-ya ürəkdən bağlı olan könüllülərimiz bundan sonra da öz fəaliyyətləri ilə uğuru nəsiblərinə çevirəcəklər.

***Nərmin HEYDƏROVA***
*“BDU könüllüləri” təşkilatının sədri*

# BDU-da qış imtahan sessiyasında 23 minə yaxın tələbə iştirak edir



***BDU-da 2024/2025-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyası keçirilir.***

İmtahanlar iki növbədə (bakalavriat səviyyəsi üzrə yazılı imtahanlar saat 10:00-13:00-dək, şifahi və magistratura səviyyəsi üzrə imtahanlar saat 14:00-17:00-dək) təşkil olunub.

Sessiya ərzində bakalavriat səviyyəsində 949 qrup üzrə 20500-dən çox, magistratura səviyyəsində isə 267 ixtisaslaşma üzrə 2160 tələbə imtahan verəcək.

Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün 2025-ci ilin fevral ayının 3-dən 7-dək şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

Sessiya fevralın 4-dək davam edəcək.

# BDU tələbələri üçün təlim: "Xaricdə təhsil: Sənin arzun, sənin hədəfin"

***Yanvarın 7-də "BDU könüllüləri" təşkilatının Kimya fakültəsi üzrə üzvlərinin və "You will speak" ingilis dili mərkəzinin təşkilatçılığı ilə "Xaricdə təhsil: Sənin arzun, sənin hədəfin" adlı təlim keçirilib.***

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov xaricdə təhsilin tələbələrin şəxsi və peşəkar inkişafına təsirindən söz açıb. Xarici dili öyrənməyin qlobal imkanlardan yararlanmaq üçün əsas vasitə olduğunu qeyd edib. Tələbələrə öz məqsədlərinə çatmaq üçün davamlı çalışmaq və yeni biliklər qazanmağın əhəmiyyətli olduğunu bildirib.

Daha sonra "You will speak" ingilis dili mərkəzinin təsisçisi və direktoru Günay Rəsulova xaricdə təhsil mövzusunda praktiki və motivasiyaedici təqdimatla çıxış edib. O, xaricdə təhsil üçün hazırlıq mərhələləri, universitet seçimi zamanı nəzərə alınmalı olan amillər, maliyyə planlaması və təqaüd proqramlarından bəhs edib. Həmçinin qəbul prosesində tələb olunan sənədlər, motivasiya məktublarının yazılması barədə iştirakçılara məsləhətlər verib, şəxsi təcrübəsini bölüşüb.

Təlimin sonunda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# "BDU könüllüləri" təşkilatının Hüquq fakültəsinin tələbələri üçün silsilə təlim proqramı başa çatıb

***Yanvarın 9-da "BDU könüllüləri" təşkilatının və Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının birgə təşkilatçılığı ilə ötən ilin mart ayından başlanılan silsilə təlim proqramı uğurla tamamlanıb.***

Təlim tələbələrin nəzəri bilikləri ilə yanaşı, praktik bacarıqlarını artırmaq məqsədilə təşkil edilib. 35-dən artıq mövzunu əhatə edən, ümumilikdə 55 saatlıq təlim proqramında 1400-dən çox tələbə iştirak edib.

Təlimlərin nəticələrinin daha geniş auditoriyaya çatdırılması məqsədilə sosial media profilləri yaradılıb və bu hesablar vasitəsilə təlim materialları, sual-cavab sessiyaları təşkil edilib. 2000-dən artıq tələbə və hüquqşünasın toplaşdığı həmin sosial media platformalarında 600-dən artıq material (məqalə, plenum qərarı, kitab) paylaşılıb, müxtəlif mövzulardan 500-dən çox sual cavablandırılıb.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin və Hollandiyanın "Ekspats" şirkətinin əməkdaşları arasında görüş

***Yanvarın 10-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və Hollandiyanın "Ekspats" şirkətinin əməkdaşları arasında onlayn görüş keçirilib.***

Görüşdə Mərkəzin əsas fəaliyyət istiqamətləri, tələbə və məzunların karyera qurucuoluğuna, əmək bazarına adaptasiya etmələrinə verdiyi töhfələr barədə məlumat verilib. Mərkəz əməkdaşlarının "Ekspats" şirkətinin fəaliyyətinə, onların BDU-nun tələbə və məzunlarına göstərə biləcəyi xidmətlərə aid sualları şirkət əməkdaşları tərəfindən ətraflı cavablandırılıb.

Onlayn görüş zamanı əməkdaşlığın reallaşdırılması istiqamətində mühüm addımların atılmasının vacibliyi, bu əməkdaşlığın BDU-nun tələbə və məzunlarının xarici sferada məşğulluq səviyyəsinin artırılmasında önəmli rolu kimi məsələlər də müzakirə edilib.

# BDU-nun şöbə müdiri "Azedu.az" portalının "İlin ən yaxşı universitet sözçüsü" müsabiqəsinin qalibi olub

***Yanvarın 6-da "Azedu.az" təhsil portalı 11 dekabr 2024-cü il tarixindən keçirilən "İlin ən yaxşı universitet sözçüsü" səsverməsinin qaliblərini açıqlayıb.***

Səsvermə müxtəlif universitetlərin mətbuat və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyət göstərən sözçülərinin 2024-cü il ərzində əməkdaşlıq və kommunikasiya bacarıqlarını qiymətləndirmək məqsədini daşıyıb.

BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva 34.8 faiz səslə I yeri qazanıb. Sorğuda II yeri Azərbaycan Memarlıq və İnşaat Universiteti, III yeri isə Bakı Mühəndislik Universitetinin təmsilçiləri Nicat Abdullayev və Elman Babayev tutub.

Əməkdaşımızı təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# BDU Rumıniyanın Qərbi Timişoara Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***BDU-nun inkişaf strategiyasında dünyanın nüfuzlu elm və təhsil müəssisələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı elm, təhsil mübadiləsinin təmin edilməsi xüsusi önəm daşıyır. Bu məqsədlə yanvarın 7-də BDU ilə Rumıniyanın Qərbi Timişoara Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1944-cü ildə qoyulan Qərbi Timişoara Universiteti QS Avropa Universitetləri reytinqində 52-ci sırada yer alır. 11 fakültəsi olan Universitetdə 16000-ə yaxın tələbə təhsil alır.

# Astrofizika kafedrası: "Yanvarın 16-da Mars adi gözlə görünən ən zəif ulduzdan 900 dəfə parlaq olacaq"

***Fizika fakültəsinin Astrofizika kafedrasından verilən xəbərə görə, qarşıdurma vəziyyətində Mars tam gecə boyunca görünür. Bu mövqe Marsın həm teleskopla, həm də adi gözlə ən yaxşı müşahidə olunduğu vaxtlardan biridir.*** Planet daha parlaq və böyük görünür, buna görə də onun xüsusiyyətlərini öyrənmək üçün astronomlar üçün ideal şərait yaranır. Eyni zamanda, yanvarın 12-də saat 23:00-da Mars Yerə 0.642 AV (96.079 milyon km) yaxın məsafədə olacaq. Hər Mars yaxınlaşması bir neçə gün fərqlə, demək olar ki, eyni vaxtda baş verən bir qarşıdurma ilə müşayiət olunur. Bu gecikmə Mars orbitinin nəzərəçarpacaq dərəcədə elliptik olması ilə əlaqədardır. Bu dəfə Mars Yerə yaxın mövqedə olanda onun görünən bucaq ölçüsü 14.6" (bucaq saniyəsi), parlaqlığı isə -1.4m ulduz ölçüsünə çatacaq. Başqa sözlə, adi gözlə görünən ən zəif ulduzdan təxminən 900 dəfə parlaq olacaq.

Bakıdan Mars bütün gecə ərzində təxminən saat 18:30-dan 07:41 radələrinə kimi görünəcək. Saat 01:14-də Mars göy meridianını keçəcək və həmin an üfüqdən 74° hündürlükdə olacaq.

Marsın ən böyük qarşıdurması Yerlə Marsın bir-birinə ən yaxın olduğu və Marsın göydə mümkün olan ən böyük parlaqlığa və bucaq ölçüsünə çatdığı hadisədir. Bu fenomen Marsın elliptik orbitinin təsiri ilə əlaqədardır, çünki Mars orbitində Günəşə nisbətən fərqli məsafələrdə hərəkət edir. Marsın ən böyük qarşıdurması təxminən 15-17 ildə bir dəfə baş verir. Bu, Mars Günəşə ən yaxın nöqtəsində – perihelidə olduğu zaman və Yer Marsa mümkün qədər yaxın olduqda baş verir.

# BDU-nun 537 tələbəsi COP29-da aktiv könüllü fəaliyyətinə görə təltif olunub

*BDU-nun ötən ilin 11-22 noyabr tarixlərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurlu təşkil olunmasında iştirak edən 537 tələbəsinin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib, onlar təşəkkürnamə və pul mükafatı ilə təltif olunublar.*




Tədbir dövründə 17 şöbə üzrə 35 fərqli istiqamətdə fəaliyyət göstərən COP29 könüllüləri hava limanında qonaqların qarşılanması prosesindən tutmuş tədbirin keçirildiyi Bakı Olimpiya Stadionunda dəstəyin göstərilməsinə qədər müxtəlif sahələrdə fəaliyyət göstərməklə yanaşı, COP29 Azərbaycan Əməliyyat Şirkətinin əməkdaşlarına və BMT nümayəndələrinə müvafiq işlərin icrasında da yaxından dəstək göstəriblər.

Qeyd edək ki, BDU-nun müxtəlif struktur rəhbərləri və müəllimləri də COP29-un təşkilindəki səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təşəkkürnaməyə layiq görülüblər.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə qış imtahan sessiyası keçirilir

*Yanvarın 17-də BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 2024/2025-ci tədris ilinin qış imtahan sessiyası keçirilir.*

İmtahanlar iki növbədə (humanitar ixtisaslar üzrə yazılı imtahanlar saat 10:00-dan 13:00-dək, iqtisadiyyat ixtisasları üzrə imtahanlar saat 14:00-dan 17:00-dək) təşkil olunub.

Kollec üzrə ümumi tələbə sayı 1650 nəfər təşkil edir. Əyani təhsilalma formasında 1326 tələbə imtahanlarda (288 nəfər tələbə ümumtəhsil fənlərindən böyük summativ qiymətləndirmədə) iştirak edir. Onlardan 933 nəfəri Azərbaycan, 393 nəfəri rus bölməsi üzrədir.

Qış imtahan sessiyası zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

# BDU və “EDU Company” təhsil şirkətinin əməkdaşları arasında görüş

*Yanvarın 21-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və “EDU Company” təhsil şirkətinin əməkdaşları arasında görüş keçirilib.*

Görüş zamanı şirkət tərəfindən təqdim edilmiş “Abituriyentlər universitetdə” və “Birgə İnkişaf Dərnəyi” adlı layihələr müzakirə edilib.

Qeyd olunub ki, “EDU Company” təhsil şirkəti abituriyentlərin BDU-nun fakültə və ixtisasları, tədris fəaliyyəti ilə yaxından tanışlığında maraqlıdır. Bunun üçün Universitetdə “açıq qapı” günlərinin təşkili faydalı olar. Bununla yanaşı, müəllimlik ixtisaslarında (riyaziyyat müəllimliyi, fizika müəllimliyi, kimya müəllimliyi, dil və ədəbiyyat müəllimliyi, coğrafiya müəllimliyi və s.) təhsil alan BDU tələbələrinin “EDU Company” təhsil şirkətində təcrübə proqramlarında iştirakı arzuolunandır. Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları adıçəkilən layihələrin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlığın vacibliyini vurğulayıblar.

# BDU-da Həkəriçay hövzəsində ekoloji vəziyyətin qiymətləndirilməsi aparılıb

*Yanvarın 28-də Ekologiya və torpaqşünaslıq fakültəsində Coğrafi ekologiya kafedrasının doktorantı Günel Heydərzadənin “İşğal dövründə Həkəriçay hövzəsinin (Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazilərində) meşə-bitki örtüyündəki dinamik vəziyyətin kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsi” mövzusunda elmi seminar keçirilib.*

Seminarda Həkəriçay hövzəsinin ayrı-ayrı rayonları üzrə ekoloji vəziyyətin dinamikası qiymətləndirilib, regional hidroloji rejimlə qarşılıqlı əlaqəsi müəyyənləşdirilib və alınmış nəticələr təqdim olunub.

Peyk məlumatları əsasında tədqiqat ərazisinin müxtəlif illər üzrə meşəbitki örtüyü (NDVİ indeksi) və onun əsasında dinamikası müəyyən edilərək, sahə göstəriciləri hesablanıb. Bundan əlavə, örtük növləri üzrə artan, azalan və dəyişməyən sahələri əks etdirən təsvirlər, müxtəlif illər üzrə meşə-bitki örtüyü növlərində baş verən dəyişiklikləri əks etdirən xəritələr, tədqiqat ərazisində müxtəlif illərin təsvirlərinin müqayisəsi nəticəsində alınmış dinamika xəritələrinin sahə göstəricilərinə əsasən histoqramı tərtib olunub. Laçın, Qubadlı və Zəngilan rayonları ərazisinin çay şəbəkəsi və hidroloji vəziyyətin dinamikasını əks etdirən diaqramlar hazırlanıb. Tədqiqat ərazisinin MNDWI su indeksini əks etdirən təsvirlər əldə edilib və onların əsasında dinamika xəritələri tərtib olunub.

Tədqiqat işində Laçın, Qubadlı və Zəngilan rayonları ərazisinin aerozolluğunun qiymətləndirilməsi aparılıb, NDVİ indeksi təyin olunub, hidroloji vəziyyətdə baş verən dəyişikliklərin meşə-bitki örtüyünə təsiri araşdırılıb.

Azərbaycanın cənub-qərb bölgəsində bitki örtüyünün vəziyyətinin araşdırılması çərçivəsində Yer səthinin peyk şəkillərinin emalı əsasında relyef təbəqələri və onun törəmələri, həmçinin NDVI, AFRI və NDWI multispektral indekslərinin qatları daxil olmaqla çoxqatlı elektron xəritə tərtib edilib.

# BDU-da “TEKNOFEST-2025”lə bağlı infosessiya

*Yanvarın 14-də “Bilim Bakı” Mərkəzinin rəhbəri, “TEKNOFEST”in Azərbaycandakı rəsmi nümayəndəsi Ahmet Köse BDU-nun tələbələri üçün infosessiya keçirib.*

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov tələbə və gənc tədqiqatçılar üçün yeni imkanlar açan “TEKNOFEST”də 2022-ci ildən bəri iştirak edən BDU komandalarının 6-sının qalib olduğunu, 2-sinin isə yarışı birinciliklə başa vurduğunu bildirib. Qeyd edib ki, BDU komandaları Şimali Kipr Türk Respublikasında keçiriləcək “TEKNOFEST-2025”-ə də həvəslə hazırlaşır.

Daha sonra Ahmet Köse dünyanın ən böyük kosmos, aviasiya və texnologiya festivalı olan “TEKNOFEST-2025”lə bağlı geniş təqdimat edib. “TEKNOFEST-2025”də komandalar 51 əsas, 117 alt yarışma kateqoriyası üzrə yarışacaqlar. Festivalda iştirak üçün qeydiyyat fevralın 20-dək davam edəcək.

Tədbirin sonunda Ahmet Köse yarışmaya qatılmaq istəyən BDU komandalarının suallarını cavablandırıb.

# BDU-da “Fotojurnalistikaya Dəstək Proqramı” çərçivəsində təlimlər



*Yanvarın 22-də BDU, Mədəniyyət Nazirliyi, Mətbuat Şurası və “Qızılbaş” Gəncləri Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Fotojurnalistikaya Dəstək Proqramı” çərçivəsində “Fotojurnalistika sənətinin yaradıcı sənaye obyekti kimi kommersiyalaşdırılmasına dəstək” mövzusunda təlimlər keçirilib.*

Proqramın açılış mərasimində çıxış edən BDU-nun Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev, sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev və Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Aqil Ələsgər fotojurnalistika təlimlərinin gənc jurnalistlərin praktiki biliklərə yiyələnmələri baxımından böyük rola sahib olduğunu bildiriblər. Qeyd ediblər ki, hazırda həyatın ayrılmaz parçasına çevrilən texnologiyaları öyrənmək və tətbiq etmək media məhsulunun keyfiyyətini daha da artırır.

Azərbaycanda gənc fotojurnalistlərin və bu sahədə çalışmaq istəyən tələbələrin yaradıcılıqlarını inkişaf etdirmək məqsədilə keçirilən təlimlər milli mətbuatımızın 150 illik yubileyinə həsr olunub. Layihə fotojurnalistlərin və tələbələrin işlərini rəqəmsal platformalarda yaymaq və satmaq üçün imkanlar yaratmağı, həmçinin yerli və beynəlxalq əməkdaşlığı da təşviq edir.

# BDU Elmi Şurasının iclası keçirilib



***Yanvarın 23-də BDU-nun Elmi Şurasının iclası keçirilib.***

İclasda BDU Elmi Şurasının 2024-cü il üzrə fəaliyyəti haqqında hesabat və 2025-ci il üzrə iş planı təsdiq edilib.

Mexanika-riyaziyyat, İnformasiya və sənəd menecmenti fakültələrinin 2024-cü il üzrə hesabatları dinlənilib və qəbul edilib. Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində struktur dəyişiklikləri haqqında məsələ müzakirə olunub. İclasda həmçinin BDU-nun 2025-ci il üzrə Sosial Fəaliyyət Planı qəbul edilib.

Daha sonra cari məsələlər müzakirə edilib.

# BDU Türkiyənin Selçuk Universiteti ilə "Orhun" mübadilə protokolu imzalayıb

***Yanvarın 27-də Bakı Dövlət Universiteti ilə Türkiyənin Selçuk Universiteti arasında "Orhun" mübadilə protokolu imzalanıb.***

Protokolu BDU-nun rektoru Elçin Babayev və Selçuk Universitetinin rektoru Hüseyin Yılmaz imzalayıb.

Protokol çərçivəsində təhsilalanlar, tədqiqatçılar və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

1975-ci ildə yaradılmış Türkiyənin Selçuk Universitetində 24 fakültə, 7 institut üzrə 68000-ə qədər tələbə təhsil alır.

# Çadlı tələbə: "Əmim də BDU məzunudur, bura onun tövsiyəsi ilə gəlmişəm"

***Rebeka Aibanga Çad Respublikasındandır. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində "Beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə III kursda oxuyur. Özü də Hökümətlərarası Təqaüd Proqramı ilə. Rebeka Aibanga qazandığı bu şans, Azərbaycandakı tələbə həyatı, təhsili, gələcək hədəfləri ilə bağlı fikirlərini bölüşüb:***



***- Necə oldu ki, təhsil almaq üçün məhz Azərbaycanı və BDU-nu seçdin?***

- "Beynəlxalq münasibətlər" ixtisası üzrə xaricdə təhsil almağı düşünürdüm. Təqaüdlə təhsil almaq fürsəti əldə etmək istəyirdim. Azərbaycan bu baxımdan mənə yaxşı imkanlar təqdim etdi. Təhsil müəssisəsinin yüksək səviyyəsi və təqaüd imkanları bu qərarıma təsir etdi. Qeyd etmək istəyirəm ki, ailəmin BDU-da təhsil alan tək üzvü mən deyiləm. Əmim də BDU-da eyni ixtisas üzrə təhsil alıb, mənə bura gəlməyi də o tövsiyə edib. O, hazırda Kanadada yaşayır.

***- Tədris göstəricilərin necədir?***

- Əlaçı tələbə deyiləm, amma bütün dərslərə ciddi yanaşıram. Tələbə yoldaşlarım da çox çalışqan və motivasiyalıdır. Ümumi Orta Müvəffəqiyyət Göstəricilərim 80-dən yuxarıdır və bu, mənim üçün yaxşı bir nəticədir.

***- BDU-da təhsil həyatı sənə nə qazandırıb?***

- BDU mənə geniş biliklər, inkişaf etmək şansı qazandırıb. Buradakı təhsil sistemi mənim düşüncə tərzimi dəyişdirdi, ələqələr qurmaq, yeni insanlarla tanış olmaq və təcrübə toplamaq baxımından çox faydalı oldu.

***- Azərbaycan və Çad təhsil sistemi arasında fərqlər varmı?***

- Ümumi olaraq böyük fərqlər yoxdur, amma bəzi metodlar fərqli ola bilər. Məsələn, bizim təhsil sistemimizdə seminarlar daha az təşkil olunur, daha çox layihələr və təqdimatlar üzərində işləyirik. Hər iki təhsil sistemində konfranslar və müzakirələr keçirilsə də, Azərbaycanın təhsil sistemində praktiki işlərə və müstəqil tədqiqatlara daha çox önəm verilir.

***- Tələbə həyatın necə keçir, sosial tədbirlərə qatılırsanmı?***

- Tələbə həyatım maraqlı və dinamikdir. Mən Tələbə Gənclər Təşkilatına qoşulmuşam, müxtəlif sosial və mədəni tədbirlərdə iştirak edirəm. Yeni mədəniyyətləri öyrənmək, yeni insanlarla tanış olmaq və müxtəlif fəaliyyətlərdə iştirak etmək mənim üçün çox əhəmiyyətlidir. Bu cür tədbirlər həm sosial bacarıqlarımı inkişaf etdirir, həm də yeni dostlar qazanmağa kömək edir.

***- Boş vaxtlarında nə edirsən?***

- Azərbaycan dilini öyrənirəm. Azərbaycan mənə çoxlu sadiq dostlar bəxş edib. Birlikdə təhsillə məşğul oluruq, Azərbaycanın müxtəlif bölgələrinə səyahət edirik. Xüsusilə Şuşa və Qəbələ məndə böyük təəssürat yaradıb. Şuşada tarixi və mədəni abidələr çox maraqlı idi, Qəbələdə isə təbiətin gözəlliyi mənim üçün unudulmaz oldu. Hər iki şəhər özünəməxsus gözəlliyi ilə yadımda qalıb.

***- Tələbəlik illərində yaddaqalan xatirələrin varmı?***

- Tələbəliyin ilk illərindən sosiallaşmağa çalışdım. Çaddan və digər Afrika ölkələrindən olan tələbələri bir araya gətirmək üçün platforma yaratdıq. Bu platforma vasitəsilə həm sosiallaşdıq, həm də tədbirlər təşkil etdik. Bu, mənim üçün əhəmiyyətli bir hadisə idi.

***- Gələcək planlarınız nələrdir? Karyeranı necə planlayırsan?***

- Təhsilimi başa vurduqdan sonra Azərbaycanda magistr təhsili almaq niyyətindəyəm. Bununla yanaşı, Kanadada da magistratura təhsili üçün müraciət etməyi planlaşdırıram. Qazandığım biliklərlə ölkəmin inkişafı, daha da tanınmasına töhfə vermək istəyirəm. Xüsusilə gənclərin təhsil və iqtisadiyyat sahəsində məlumatlandırılması, beynəlxalq təşkilatlarla əlaqələrin yaxşılaşdırılması üçün bir sıra işlər həyata keçirmək istəyirəm. Fərqli ölkələrdəki inkişaf modellərini öyrənmək mənim peşəkar bacarıqlarımı genişləndirəcək və ölkəmdə yeni layihələr, təşəbbüslər həyata keçirməyimə şərait yaradacaq.

***- Azərbaycan mədəniyyəti ilə bağlı fikirlərin necədi?***

- Bəli, Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmuşam. Azərbaycanlılar çox qonaqpərvər və köməksevər insanlardır. Burada qaldığım müddətdə milli bayramlarda iştirak etmək fürsətim oldu. Novruz bayramı ən gözəlidir. Novruzun ənənələri, xüsusilə şəkərbura və paxlavanı yemək çox xoşuma gəldi. Bir dəfə qonşularım mənə papaq atdılar və bu ənənəyə uyğun olaraq bayram şirniyyatı qoymalı idim. Ocaqdan tullanma mərasimində iştirak etmək də çox əyləncəli və maraqlı idi. Azərbaycan mədəniyyətinin bu cür unikal ənənələri çox diqqətimi çəkdi.

***- COP29-da iştirak etdinizmi?***

- Əlbəttə. COP29 böyük bir platformadır. Konfrans ərəfəsində bir çox yerli və beynəlxalq rəsmilərlə tanış oldum. Bu konfransa dünyanın hər yerindən çox sayda insan toplaşmışdı. Həmçinin Çaddan da rəsmilər iştirak edirdi. Onlarla söhbət zamanı bildirdilər ki, bu qədər tələbənin burada təhsil almağını yüksək qiymətləndirirlər. Onlar bizə çox çalışmaq və yaxşı kadr olmaqla bağlı tövsiyələrini verdilər. Düşünürəm ki, Azərbaycan ilə Çad mədəni əlaqələri çox yaxşıdır və gələcəkdə daha da inkişaf etdiriləcək.

***- Azərbaycanın xarici siyasətini, beynəlxalq əlaqələrini izləyirsənmi? Azərbaycanla Çad Respublikası arasında əlaqələri necə dəyərləndirirsən?***

- Bəli, Azərbaycanın beynəlxalq əlaqələrini izləməyə çalışıram. Ölkənizin dünya miqyasında güclü xarici siyasət aparması və beynəlxalq təşkilatlarda aktiv iştirakı mənim üçün çox maraqlıdır. Azərbaycanın beynəlxalq əlaqələri müxtəlif sahələrdə genişlənir və çoxsaylı ölkələrlə, o cümlədən inkişaf etməkdə olan dövlətlərlə sıx əlaqələr qurulur. Azərbaycanla Çad Respublikası arasındakı əlaqələr də diqqətəlayiqdir. Hər iki ölkə arasında diplomatik münasibətlər mövcuddur. Bu münasibətlər ticarət, enerji və digər sahələrdə əməkdaşlığı əhatə edir. Azərbaycanın Çad ilə əməkdaşlığı inkişaf etdirmək üçün potensialı böyükdür. Bu, regional və qlobal məsələlərdə mövqeləri gücləndirmək baxımından da önəmlidir.

***- Gələcəkdə Azərbaycanla Çad Respublikası arasında münasibətlərə töhfə vermək istəyirsənmi?***

- Bəli, gələcəkdə Azərbaycanla Çad Respublikası arasında və ümumilikdə beynəlxalq münasibətlərə töhfə vermək istəyirəm. Bu sahədə həm nəzəri, həm də praktiki təcrübə qazanmağa çalışıram. Azərbaycanla Çad arasında əlaqələrin inkişafı, beynəlxalq münasibətlər, xüsusən mədəniyyət sahələrində əməkdaşlığın möhkəmləndirilməsi mənim maraq dairəmdədir. Beynəlxalq təşkilatlarda fəaliyyət göstərməyi planlaşdırıram. Bu cür təşkilatlarda iqtisadi inkişaf, təhsil, sosial və humanitar məsələlərlə bağlı problemlərin həll yollarının tapılmasında iştirak etmək istəyirəm. Həm ölkəmə, həm də digər dövlətlərə töhfə vermək mənim peşəkar hədəflərimdən biridir.

***Hazırladı: Nərminə Əsədova***


**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.01.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08